QARABAĞ AZƏRBAYCANDIR!

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 172 (6372) 23 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında videomüraciət formatında çıxış edəcək



Bax 3

## Azərbaycan-Türkiyə-Pakistan: dostluq və qardaşlığa söykənən əməkdaşlıq



Bax 7

## Ceyms Şarp: "Bu gün Bakı şəhərinin küçələri öz təmizliyi ilə seçilir"

*Artıq üç ildir ki, Bakı Şəhəri İcra Hakimiyyəti Böyük Britaniyanın "Mott MacDonald" şirkəti ilə birgə paytaxtımızda...*



Bax 7

## "Prezidentin Qarabağla bağlı müəyyənləşdirdiyi yol xəritəsi uğurla icra edilir"



Bax 9

"Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşərək Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçən əsgər və...

## YAP-ın Xəzər, Suraxanı və Sabunçu rayon təşkilatlarının yeni sədrləri partiya aktivinə təqdim olunub



Bax 6

## Azərbaycan brendi "ASAN xidmət"ə maraq artır



Bax 8

*Bu gün dünya ölkələri sosial xidmətlər sahəsində Azərbaycanın yeni brendi olan "ASAN xidmət"in təcrübəsini öyrənir. "ASAN xidmət"in uğurlu layihə olması qısa bir zamanda onun beynəlxalq mükafatlara layiq görülməsi, yüksək qiymətləndirilmsəi ilə nəticələndi.*

## "Minlərlə uşağı, gənci, qadını, qızı zəhərləyən..."



*"Bütün dünyada olduğu kimi Azərbaycanda da son illər həm təbii yolla əkib-becərilən narkotik bitkiləri, istehsalı və ondan istifadə, həm də süni sürətdə sintetik uyuşturucu maddələr, o cümlədən həb və dərman formasında narkotik tərkibli maddələrin istifadəsi, yayımı, satışı və onlarla bağlı şəbəkələrin sayı get-gedə artır.*

Bax 14

## Ermənistan: 30 ilin son dərsi və İran



Bax 13

**44 günlük müharibədə ağır məğlubiyyətə uğrayan Ermənistanda bütün sferalar - həm dövlət, həm də qeyri dövlət strukturları çöküb. Yüksəliş, inkişaf haqqında deyilənlər isə yalnız kağız üzərindədir.**

## "Texnofest-2021" festivalının əhəmiyyəti nədən ibarətdir?

Bax 9



"Türkiyədə keçirilən "Teknofest-2021" festivalına Azərbaycan hərbi hava qüvvələrinin dəvəti Azərbaycan Türkiyə arasında olan dostluğu, qardaşlığı təsdiq edən bir dəvətdir...

## Bəlkə yetər..?!

Bax 12



"...Qarabağın Martuni bölgəsinin Maçkalaşen icması ərazisindəki Azərbaycan hərbçiləri irəliləyərək neytral zonada mövqe...

## Osmanqızı bu dəfə əlikramlıq edir

ABŞ-da bu ölkənin məlum orqanları qarşısındakı xüsusi xidmətlərinə görə 262 min dollarlıq təmtəraqlı mənzillə mükafatlandırılan Sevinc Osmanqızıdan hazırkı...



Bax 14

## "Ermənistan düşdüyü çətin vəziyyətinə görə, ilk növbədə..."



Bax 9

## Seyran Ohanyandan ETİRAF: "Bu vəziyyətdə suverenlikdən danışmaq mümkün deyil"



Bax 7

## "İnternetin keyfiyyəti ilə bağlı çox ciddi problemlər var"



Bax 16

# Şuşada böyük quruculuq işləri: tarixlə müasirliyin vəhdətində

*Prezident İlham Əliyev: "Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır"*







***44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə Azərbaycanın Zəfər tarixini əbədiləşdirdi. Azərbaycan işğal altında olan torpaqları erməni təcavüzkarlarından təmizləyərək, yeni bir həyata qədəm qoydu. "Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də, işlərin miqyası böyük olacaq.***






Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur". İşğaldan azad olunan ərazilərimiz sırasında Qafqazın mirvarisi, Qarabağın döyünən ürəyi olan Şuşa da 28 illik işğal tarixindən sonra öz sakinlərini qəbul edir. Artıq Şuşada yenidənqurma işlərinə start verilib. Vaxtilə ermənilərin məskən saldığı ərazilər öz sakinlərini ağuşuna alır və böyük "ümidlərlə" yaşadıqları bütün utopiyaları alt-üst olub. Onsuz da tarix boyu belə olub. Ermənilərin utopiyaları həmişə uğursuzluğa uğrayıb. Necə ki, Ermənistan hakimiyyəti Şuşa şəhərinin bərpasını həyata keçirmək üçün 2000-ci ildə tədbirlər planı hazırlamışdır və bu, el dilində desək, arzuları ürəklərində qaldı.

## "ERMƏNİLƏR NƏ QƏDƏR ÇALIŞSALAR DA, YENƏ DƏ ŞUŞANI ERMƏNİ ŞƏHƏRİ KİMİ TƏQDİM EDƏ BİLMƏDİLƏR"

İrəvan şəhərində "Şuşi" Mədəniyyət Fondu və "Şuşi" nəşriyyat evini yaratmışdır. Fond yaradıldıqdan dərhal sonra özünün Şuşa şəhərini dünya ermənilərinin dini və mədəniyyət mərkəzləri kimi inkişaf etdirilməsi layihəsini irəli sürdü. Belə ki, bu layihə çərçivəsində təmir, bərpa və quruculuq işlərinin həyata keçirilməsi 5 mərhələdə həyata keçirilməsi nəzərdə tutulurdu. Yeni turist mehmanxanalarının tikintisi, Qala divarlarının, Xan sarayının, Xan qızının iqamətgahının, qədim hamamın bərpası, eyni zamanda, bu abidələrin bərpasından sonra içərisində və ətrafında bütün zəruri rahatlıqlarla təmin edilməsi və s. Hətta O.Tarkanyan adına Mədəniyyət Mərkəzinin yaradılması da plana daxil idi.

**Ardı Səh. 3**

# Şuşada böyük quruculuq işləri: tarixlə müasirliyin vəhdətində

*Prezident İlham Əliyev: "Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır"*

Əvvəli-Səh-2

Yeni erməni ibtidai məktəbinin tikilməsi vacib hesab edilirdi. XIX əsrin əvvəllərində inşa edilmiş Şuşa real məktəbi təmir edilərək, onu Marinay adına gimnaziya adlandırmaq, Zaxaryan adına müasir xəstəxana binasını tikmək və s. planlaşdırılırdı. Bütün bunlar ermənlərin yalnız gələcək üçün olan "plan"ları idi ki, tarixi ədalət bərpa olundu və haqq yerini tutmuş oldu.

Yeni erməni ibtidai məktəbinin tikilməsi vacib hesab edilirdi. XIX əsrin əvvəllərində inşa edilmiş Şuşa real məktəbi təmir edilərək, onu Marinay adına gimnaziya adlandırmaq, Zaxaryan adına müasir xəstəxana binasını tikmək və s. planlaşdırılırdı. Bütün bunlar ermənlərin yalnız gələcək üçün olan "plan"ları idi ki, tarixi ədalət bərpa olundu və haqq yerini tutmuş oldu.



Azərbaycan Prezidentinin çıxışlarının birində vurğuladığı kimi "Ermənilər nə qədər çalışsalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb".

### "ERMƏNİLƏR 17 BULAĞIN 17-SİNİ DƏ QURUTMUŞDULAR"







Vurğulamaq yerinə düşər ki, Azərbaycan Prezidenti İlham Əliyevin müharibədən sonra ilk dəfə Şuşaya bu il yanvarın 14-də səfər etmişdir və ilk səfərində göstəriş vermişdir ki, Vaqifin məqbərəsi bərpa edilsin. Artıq buna nail olunub. Məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürmüş və bu yaxınlarda məqbərənin önündə Vaqif Poeziya Günləri keçirildi. Eyni zamanda, Şuşada "Xarıbülbül" festivalı keçirildi. Bəli, Şuşanın bərpası istiqamətində kifayət qədər işlər görülüb. Cənab Prezident qeyd edib ki, ilk növbədə, yol çəkildi. "Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur". Dövlət başçısı magistral yolun da çəkildiyini bildirib: "Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir". Şuşada tarixi dini-mədəni abidələrimiz bərpa və təmir olunur. Şuşada üç məsciddə təmir-bərpa işləri aparılır. Bu məscidlərin təmirini Heydər Əliyev Fondu öz üzərinə götürüb. Cənab Prezidentin qeyd etdiyi kimi, Natəvan bulağı bərpa edilib və indi su gəlir: "Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" oteli istifadəyə verildi, artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı".

### "KOMPLEKS TƏDBİRLƏR ONU GÖSTƏRİR Kİ, ŞUŞANIN DİRÇƏLDİLMƏSİ SÜRƏTLƏ GEDİR VƏ ŞUŞALILAR ŞUŞAYA QAYIDIRLAR"

Bu, Azərbaycan həqiqətləridir. Qısa bir zamanda görülən işlər, reallaşan işlər torpağa məhəbbətdən qaynaqlanır. Ermənilər tərəfindən güllələbaran edilmiş Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri artıq öz isti nəfəsli torpağındadır. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu. Bülbülün evinin açılışı oldu. "Qarabağ" hoteli əsaslı təmirdən sonra istifadəyə verildi. Görülən işlərin davamı olaraq yeni yaşayış kompleksinin təməli də qoyulub. Cənab Prezidentin vurğuladığı kimi, "Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik".

**Zümrüd BAYRAMOVA**

## Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında videomüraciət formatında çıxış edəcək

Sentyabrın 14-də BMT Baş Assambleyasının (BA) növbəti, 76-cı sessiyası öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, Maldiv adalarının xarici işlər naziri Abdulla Şahid BMT BA-nın 76-cı sessiyasının prezidenti seçilib. Bununla da BMT BA-nın 75-ci sessiyasının prezidenti Volkan Bozkırın (Türkiyə) səlahiyyətləri başa çatıb.



Ənənəvi olaraq, sessiya çərçivəsində yüksəksəviyyəli ümumi müzakirələr keçiriləcək. Dövlət və hökumət başçılarının iştirakı nəzərdə tutulan ümumi müzakirələr sentyabrın 21-dən başlayıb və sentyabrın 27-dək davam edəcək.

Müzakirələrin əvvəlində BMT-nin Baş katibi Antonio Quterreş illik hesabatını təqdim edib. Hesabatda beynəlxalq sülh və təhlükəsizliyin qorunması, dayanıqlı inkişaf, insan hüquqlarının müdafiəsi və təşviqi, həmçinin digər önəmli məsələlərə toxunulur.

Pandemiya ilə əlaqədar bu il ümumi müzakirələr seqmentinin hibrid formada, yəni həm fiziki iştirak, həm də virtual (videomüraciət) formada olması nəzərdə tutulub. Bu ilki ümumi müzakirələrin mövzusu belədir: "Ümid vasitəsilə müqavimətin gücləndirilməsi: COVID-19-dan sonra bərpa, dayanıqlığın yenidən qurulması, planetin ehtiyaclarının cavablandırılması, insan hüquqlarına hörmət və BMT-nin canlandırılması".

Ümumi müzakirələr BMT BA-nın ən önəmli seqmentlərindən biridir. Belə ki, qlobal platforma olan BMT BA-nın bu mötəbər kürsüsündən dövlət və hökumət başçıları istər milli, istərsə də beynəlxalq gündəlikdə duran məsələlərlə bağlı öz baxışlarını, dövlətlərinin siyasətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırırlar.

Müzakirələrdə Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, ABŞ Prezidenti Cozef Baydenin, Çin Xalq Respublikasının Sədri Si Cinpinin və bir çox digər dövlət və hökumət başçılarının çıxışları gözlənilir. Bu il müzakirələr zamanı dövlət və hökumət başçıları tərəfindən əsasən COVID-19 pandemiyası, beynəlxalq sülh və təhlükəsizlik, Əfqanıstanda vəziyyət, dayanıqlı inkişaf, iqlim dəyişikliyi və digər önəmli məsələlərə toxunulacağı gözlənilir.

Ümumi müzakirələr çərçivəsində sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciət formatında çıxışı nəzərdə tutulub. BMT BA-nın builki ümumi müzakirələri ölkəmiz üçün xüsusi önəm kəsb edir. Belə ki, Azərbaycanın Vətən müharibəsində şanlı Qələbəsindən sonra Prezident İlham Əliyev dünya ictimaiyyətinə Müzəffər Ali Baş Komandan kimi müraciət edəcək, qalib Azərbaycan xalqını təmsil edəcək.







# YAP-ın Xəzər, Suraxanı və Sabunçu rayon təşkilatlarının yeni sədrləri partiya aktivinə təqdim olunub

Sentyabrın 22-də Yeni Azərbaycan Partiyasının Xəzər, Suraxanı və Sabunçu rayon təşkilatlarının yeni sədrləri Namiq Əhmədov, Vüqar Seyidov və Misirxan Vəliyev ərazi partiya təşkilatlarının sədrlərinin də iştirakı ilə keçirilən yığıncaqlarda yerli təşkilatların partiya aktivinə təqdim olunub. SİA-nın verdiyi məlumata görə, əvvəlcə Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarının inzibati binasında ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib.












Tədbirlərdə çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurlarından bəhs edib, partiyamızın fəallarının ölkəmizin nailiyyətlərinin təbliği işində aktiv şəkildə iştirak etdiyini diqqətə çatdırıb.

Vurğulanıb ki, hər bir siyasi təşkilat mütəmadi olaraq yenilənməli, ideoloji prinsiplərini yeni dövrün tələblərinə uyğunlaşdırmalı, funksional və struktur islahatları baxımından dövrün çağırışlarına cavab verməlidir. Bu baxımdan, YAP-ın VII Qurultayında vacib qərarların qəbul edilməsi, yeni nizamnamənin qəbulu təşkilati nöqteyi-nəzərdən xüsusi önəm daşıyır.

Eyni zamanda, Yeni Azərbaycan Partiyasının VII Qurultayının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğu bildirilib və qeyd edilib ki, qurultayda partiyamızın Sədri, Prezident İlham Əliyevin proqram xarakterli nitqi, möhtəşəm Zəfərdən sonra yaranmış reallıqlar YAP üzvləri qarşısında yeni vəzifələr müəyyələşdirir. Bu baxımdan, YAP üzvləri qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirməlidirlər. Bu prosesdə partiyamızın yerli təşkilatları da fəal iştirak etməlidir.

Tədbirlərdə çıxış edən Namiq Əhmədov, Vüqar Seyidov və Misirxan Vəliyev göstərilən etimada görə partiya rəhbərliyinə təşəkkürlərini bildiriblər. Təşkilat sədrləri qeyd ediblər ki, ulu öndər Heydər Əliyevin qurucusu olduğu partiyada təmsil olunmaq böyük şərəf və məsuliyyətdir. Partiya rəhbərliyinin qarşıya qoyduğu tapşırıqların və tövsiyələrin yerinə yetirilməsi rayon təşkilatlarının bundan sonra da başlıca vəzifəsi olacaq.

Tədbirlərdə həmçinin, Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov və Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev rayon təşkilatlarının yeni sədrlərini təbrik edərək, gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Tədbirlərdə yerli təşkilatların gələcək fəaliyyəti ilə bağlı qarşıda duran vəzifələrə dair müvafiq tövsiyələr verilib.

# Zəfərimiz yeni-yeni hədəflərə yol açır



*YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyevanın yap.org.az-a müsahibəsi*

***- Aynur xanım, 27 sentyabr-Anım Günü ərəfəsindəyik. Azərbaycanın haqqı, ədaləti bərpa etdiyi 44 günlük İkinci Qarabağ savaşının başlandığı bu tarix 30 illik işğal dövrünün reallıqlarının aydın mənzərəsini yaradır. Zəfərimizə gedən yola birlikdə qısa nəzər salsaq bu uğurlarımız sizdə hansı hissləri yaradır?***

- Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik. Onların həyat yolu vətənpərvərlik məktəbidir. Hər bir gənc bu məktəbdən bəhrələnməli, onların həyat yolunu dərindən öyrənməli, Zəfərimizin qəhrəmanlarının keçdikləri hünər yolunun növbəti nəsillərə çatdırılmasına öz töhfəsini verməlidir. Bu gün ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Vətən oğullarının qəhrəmanlığı, şücaəti sayəsində qürurla qeyd edirik ki, torpaqlarımız artıq tarixi sahibinə qovuşub.

Tarixə nəzər salaq. İşğalçı Ermənistanın əsassız torpaq iddiası nəticəsində yaranan, artıq 44 günlük Vətən müharibəsi nəticəsində tarixə qovuşan Ermənistan -Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 20 faiz torpağımızın işğalına və 30 il düşmən tapdağı altında qalmasına səbəb oldu. Amma bir gün də belə Qarabağımızı unutmadıq. Gec-tez haqqın, ədalətin öz yerini tapacağına, tarixi torpaqlarımızın sahibinə qovuşacağına əmin idik. Çünki 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı müstəqilliyimizin ilk illərinin xaosundan, anarxiyasından, özbaşınalıqlarından, hərc-mərcliyindən, iqtisadi böhranından xilas etməklə yanaşı, yeganə problemimiz olan torpaqlarımızın işğaldan azad olunması üçün həm diplomatik müstəvidə, həm də döyüş meydanında möhkəm baza yaratdı. Azərbaycan inkişaf, tərəqqi yoluna çıxaraq bütün sahələrdə davamlı uğurlara imza atdı. Ölkəmiz həqiqətlərini dünyaya çatdırdı. Ordumuz Qələbəyə hazırlandı. Dövlət büdcəsinə ayrılmalara diqqət yetirdikdə görürük ki, ilk yerdə müdafiə xərcləri dayanır. Azərbaycanın hərbi büdcəsi artırıldı, ordumuzun döyüş qabiliyyəti gücləndirildi, maddi-texniki bazası möhkəmləndi, hər an torpaqlarını işğaldan azad etməyə qadir ordusu formalaşdı. Ümummilli lider Heydər Əliyev bildirirdi ki, biz hərb istəmirik, amma hərbə hazırıq. Sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü, qüdrətli ordunun olması əsasdır.

Azərbaycan ulu öndər Heydər Əliyevin gələcəyə hesablanmış siyasəti nəticəsində iqtisadi inkişafı ilə dünyada möcüzələr ölkəsi kimi tanındı. İqtisadi tərəqqi bütün sahələrdə uğurlu addımların atılmasını şərtləndirdi. Uğurlarımızın davamlılığı fonunda Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə inam daha da artdı, tezliklə bu ədalətsizliyə son qoyulacağına əminlik yarandı.

Son 18 ildə Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən, 8 noyabr 2020-ci il tarixində Qarabağın tacı, Azərbaycanın döyünən ürəyi olan Şuşamızın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən ata vəsiyyətini yerinə yetirdiyi üçün xoşbəxtliyini böyük qürurla vurğulayan dövlət başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev bu illərdə ərazi bütövlüyümüzün bərpasına hazırlıq gördü. Şuşanın, eyni zamanda, digər işğal altında olan torpaqlarımızın illərdir gəlişimizi gözlədiyini və gələcəyimizə əmin olduğunu hər zaman vurğulayan Ali Baş Komandan bu inamı əsaslandıran məqamları da açıqlayırdı.

Otuz il zaman keçdi. Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozması, Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini iriçaplı silahlardan, artilleriya qurğularından, minaatanlardan intensiv atəşə tutması nəticəsində başlanan Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə yeni səhifələr yazdı. 44 günün hər günü Azərbaycanın tarixinə Qələbə günü kimi yazıldı. Xalqımız hər gün dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevdən Qələbə xəbərlərini gözlədi. Ölkə Prezidentinin xalqa hər müraciəti Zəfərimizlə bağlı sabaha ümidləri daha da artırdı, küçə və meydanları Azərbaycanla yanaşı, bizə mənəvi və siyasi dəstək olan qardaş, dost ölkələr- Türkiyə və Pakistanın bayraqları bəzədi. Harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı bu gün də o anların təəssüratlarını bölüşür, illərdir çəkilən torpaq həsrətinə 44 gündə son qoyulmasının sevincini yaşayır. 44 gündə Füzulinin, Ağdamın, Cəbrayılın, Kəlbəcərin, Laçının, Qubadlının, Zəngilanın, Şuşanın, Hadrutun və digər işğal altında olan rayonlarımızın ümumilikdə 300-ə yaxın kəndinin, strateji yüksəkliklərin işğaldan azad olunması ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 17 illik gərgin siyasi-diplomatik səylərinin, dövlətçilik təcrübəsinin, torpağına bağlılığının, əsgər və zabitlərimizin ruh yüksəkliyinin, xalq-ordu birliyinin məntiqi nəticəsidir. "Dəmir yumruq" Vətən müharibəsinin devizinə çevrildi. "Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir" söyləyən, bu tarixin müəllifi olan Prezident, Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, müzəffər Azərbaycan xalqı, qalib Milli Ordumuz düşmənə heç vaxt unutmayacağı zərbəni vurdu və təsdiqlədi ki, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! 44 günlük İkinci Qarabağ savaşı Azərbaycan xalqının nə qədər məğrur, yenilməz xalq olduğunu bir daha dünyaya nümayiş etdirdi. Cənab İlham Əliyevin daim bəyan etdiyi kimi, Qarabağın tacı Şuşa 28 il əsarətdə olsa da əyilmədi, milli qürurumuzu, kimliyimizi qorudu. Biz bu torpaqlara qayıtdıq və doğma Qarabağımızda əbədi yaşayacağıq.

***- Bu gün dünyanın diqqəti Şuşamızda, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işlərinə yönəlib. Bu torpaqlarımızda dərhal başlanan quruculuq işləri özündə hansı çağırışları və mesajları ehtiva edir?***

- Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı işğaldan azad edəcəyimizə tam əmin idi. Ölkə Prezidentinin 44 gündə xarici mətbuata çoxsaylı müsahibələrinin hər birinə diqqət yetirsək görərik ki, həmin müsahibələrdə postmüharibə dövrü üçün reallaşdırılacaq bərpa və quruculuq işlərindən bəhs olunur. Azərbaycanın hərbi-siyasi qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan Azərbaycan və Rusiya Prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladıqları 10 noyabr Bəyanatından sonra dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş ərazilərimizə başlanan davamlı səfərlərinin hər biri bərpa və quruculuq işlərinin miqyası barədə aydın təsəvvür yaratdı. Cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın bu müddətdə təkcə mədəniyyət paytaxtımız Şuşaya 5 dəfə səfər ediblər. Tarixi günlərdə reallaşan bu səfərlərin hər biri Ermənistana və ona havadarlıq edən dövlətlərə, ümumilikdə dünyaya bir sıra mesajlar ünvanlayıb. 44 günlük İkinci Qarabağ müharibəsindən ötən 10 ayda Azərbaycanın işğaldan azad edilmiş əraziləri tikinti, quruculuq meydanına çevrilib. Füzuli Beynəlxalq Hava Limanı, uzunluğu 100 kilometrdən çox olan Zəfər yolu, dünyaya səs salan "ağıllı şəhər" və "ağıllı kənd" layihələri çərçivəsində 2022-ci ilin əvvəlində sakinlərini qarşılayacaq ilk "ağıllı kənd" - Zəngilanın Ağalı kəndləri, baş planı təqdim edilən Ağdam və Şuşa şəhərləri bu işlərin əsas ünvanlarıdır. Bu yenilikləri, quruculuq və bərpa işlərini xeyli sayda sadalamaq olar. Görülən bu işlər fonunda dünya erməni faşizmi ilə sülhsevər Azərbaycan xalqının fərqini görür. Azərbaycan dövləti həm müharibə davam etdiyi, həm də Zəfərimizdən sonra işğalçı Ermənistana sülh razılaşmasını imzalamağı təklif etməklə humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirir. Ermənistan yenə də xislətinə uyğun olaraq sülh razılaşmasını imzalamaqdan yayınır. Amma Azərbaycanın tələbi də ortadadır-Sülh təklifi masa üzərində daimi saxlanıla bilməz. Azərbaycan bu gün işğaldan azad edilmiş topaqlarımızda gördüyü işlərlə bir daha təsdiqləyir ki, qurucu, yaradıcı xalqıq. Ermənilər isə müharibələrin və barbarlığın sadiq qullarıdır. 44 günlük Vətən müharibəsində yalnız torpaqlarımızı işğaldan azad etmədik, eyni zamanda, mədəniyyət beşiyimiz Şuşamıza qayıtdıq, "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri - ənənələr bərpa edildi, Şuşanın Cıdır düzündən tolerant, multikultural dəyərlərə böyük töhfələr verən ölkə olduğumuzu bir daha dünyaya çatdırdıq. "Xarıbülbül" musiqi festivalının açılış günündə ölkəmizdə yaşayan xalqların, millətlərin musiqi yaradıcılığı təqdim edildi. Muğamlarımız yenidən Qarabağın səmalarında qanadlandı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Vaqif Poeziya Günlərinin açılış mərasimində erməni faşizminin mahiyyətini açıqlamaqla yanaşı, Şuşanın Azərbaycan üçün önəmini diqqətə çatdırdı: "Əfsuslar olsun ki, Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr, o cümlədən Vaqifin məqbərəsi vandallar tərəfindən dağıdılmışdı. Şuşanın işğalı xalqımızın böyük faciəsi idi. Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır". Bu tədbirlər ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirildi. Bunlar Heydər Əliyev Fondunun işğaldan azad edilmiş ərazilərimizdə icrasına başladığı layihələrin tərkib hissələridir.

Qarabağın tacı Milli Qurtuluş Günündə Azərbaycan və Türkiyə birliyinin, həmrəyliyinin zirvəsi olan Müttəfiqlik Bəyannaməsinin imzalanmasına şahidlik etdi. Şuşa Bəyannaməsi dünyaya bir sıra mesajlarını çatdırdı. Azərbaycan dost, qardaş ölkənin Prezidentini Şuşada qarşıladı. 28 il Şuşanı erməniləşdirməyə çalışanlar atılan bu addımların fonunda bir daha bu reallığın şahidi oldular ki, tarixi inkar etmək qeyri-mümkündür, eyni zamanda, torpağın sahibi qurub yaradan, hər daşının, qayasının qoruyucusu olur. Ən əsası qonaqlarını böyük ruh yüksəkliyi, qürurla qarşılayır, uca səslə "Xoş gəldiniz!" deyir.

Füzuli Beynəlxalq Hava Limanına "Qarabağ" təyyarəsinin ilk eniş etməsi də tarixi Zəfərimizi bir daha dünyaya nümayiş etdirdi. Avqustun 29-da ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev işğaldan azad olunmuş ərazilərə növbəti səfəri zamanı Füzuli Beynəlxalq Hava Limanından bəhs edərkən söylədiyi "Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum, indi isə gəlirik inşaat işləri ilə tanış olmağa.

*Ardı Səh. 6*

# Zəfərimiz yeni-yeni hədəflərə yol açır

Əvvəli-Səh-5

Bu aeroport Qarabağın hava qapısıdır” fikirləri bir neçə gündən sonra, sentyabrın 5-də reallığa çevrildi. Rəmzi məna daşıyan ”Qarabağ” adlı təyyarə ”Qarabağın hava qapısı”na - Füzuli Beynəlxalq Hava Limanına eniş etdi. Bu mühüm hadisə tarixə Zəfərimizin davamı kimi yazıldı. Hələ belə Zəfərlərimiz çox olacaq. Böyük Qayıdışa açılan bu yollar tezliklə soydaşlarımızı doğma yurd-yuvalarına qovuşduracaq. Sentyabrın sonunda Zəfər yolu kimi dəyərləndirilən Füzuli-Şuşa yolunun tikintisi başa çatdırılır. Göründüyü kimi, Qarabağın bütün qapıları üzümüzə açıqdır.

***- Aynur xanım, dövlət başçısı İlham Əliyevin bütün müsahibələrində, müraciətlərində, çağırışlarında bu məqam öz əksini tapır ki, Zəfərimizi şərtləndirən əsas amillərdən biri torpaq, Vətən sevgisi, gənclərimizdə vətənpərvərlik hissinin böyüklüyüdür…***

- Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, indi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri əllərində silah, bayraq, ürəklərində Vətən sevgisi ilə qayıdıblar. Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik qələbəmizin əsas amilinə çevrildi. Dövlət başçısı İlham Əliyev daim bu məqamı da xüsusi qeyd edir ki, son illərdə Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəslin yetişməsindən çox şadam. On səkkiz ildir Azərbaycana rəhbərlik etdiyini önə çəkən dövlət başçısı bildirmişdir ki, bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq əsas yükü, vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşları var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi.

Təbii ki, Qələbəmizin rəmzinin yumruq seçilməsi də təsadüfi deyil. Bu yumruq, həm güc, həm də birliyimiz, həmrəyliyimizdir. Azərbaycan xalqı Vətən müharibəsində öz birliyini, həmrəyliyini nümayiş etdirdi. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin ”Hamımızın bir vətəni var-Azərbaycan” çağırışı harada yaşamasından asılı olmayaraq bütün soydaşlarımızı bir araya gətirdi, ərazi bütövlüyümüzün təmin olunması istiqamətində hər kəsi üzərinə düşdüyü vəzifəni yerinə yetirməyə çağırdı. Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin gənclərə diqqət və qayğısı hər addımda özünü qabarıq şəkildə büruzə verir. Cənab Prezident daim onlara bu çağırışı edir ki, dövlət maraqları hər şeydən üstün tutulmalıdır. Bu fikir istər Vətən müharibəsi, istərsə də postmünaqişə dövründə fəxrlə qeyd edilir ki, Qarabağ torpaqlarını, Şuşanı azad edən gənclər ulu öndər Heydər Əliyev məktəbinin, Prezident İlham Əliyev idarəçiliyinin yetirmələridir. Ümummilli Lider Azərbaycan gəncliyini daim sağlam ruhda, vətənpərvər görmək istəyib. Dahi rəhbər bu istəyini belə ifadə edirdi ki, Azərbaycanın gələcəyi indiki gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır. Məhz möhkəm təməl üzərində formalaşan, Heydər Əliyev məktəbindən bəhrələnən o dövrün gəncləri bu gün yeni nəslin düzgün yetişməsində öz təcrübələrini paylaşırlar. Dövlət başçısı İlham Əliyev yaşlı nəslin təcrübəsi ilə gənclərin dinamizmi arasında vəhdətin yaradılmasını günümüzün əsas tələbi kimi qarşıya qoyub. Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının dövrün yeni reallıqlarına uyğun olaraq bu ilin mart ayının 5-də keçirilən VII qurultayında da bu məsələlər diqqət mərkəzində oldu. Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının yaradılmasında da bu kimi məqsədlər özünün aydın ifadəsini tapıb.

***- Dövlət başçısı İlham Əliyev sentyabrın 7-də Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bu vəzifəni qarşıya qoydu ki, bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır…***

- Milli-mənəvi dəyərləri qorumaq hər bir vətəndaşın borcudur. Bu dəyərlər milli kimliyimizin ifadəsidir. Dövlət başçısı İlham Əliyevin gənclərin milli ruhda tərbiyə olunmasına çağırışları və bu istiqamətdə atdığı addımlar hazırkı dövrün reallıqları ilə şərtlənir. Belə ki, qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı mütərəqqi dəyişikliklərə yol açır. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu proseslərin mədəni irsə təsiri, gənclərin yad ünsürlərin təsiri altına düşmələri də baş verir. Bu isə öz növbəsində milli-mənəvi dəyərlərin assimilyasiyaya uğramasına səbəb olur. Belə halların qarşısı alınmalıdır. Gələcək uğurlarımıza yeganə təminat sağlam cəmiyyət quruculuğuna diqqəti artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə daha dərindən aşılamaqdır. Bütün bunlar göstərir ki, ulu öndər Heydər Əliyevin ideyalarını bütün sahələrdə gerçəkləşdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə xalqın milli-mənəvi, mədəni və elmi intellektual potensialının gücləndirilməsi ön plandadır.

Gənclərimizin milli-mənəvi ruhda tərbiyəsində ailələr mühüm rol oynayır. Ailə dəyərlərini qorumaqla gənclərimizi düzgün istiqamətləndirə bilərik. Azərbaycan xalqına xas olan təkmil ailə modelini qorumaq ümumi işimizdir. Milli-mənəvi dəyərlərimizə, ənənələrimizə mənfi təsir göstərən hadisələrə qarşı barışmaz olmalı, onların ictimailəşdirilərək mənfi halların miqyasının genişlənməsinə yol verməməliyik. Ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir. Ailə ənənələrin, keçmişlə müasirliyin vəhdətinin qoruyucusu və ötürücüsüdür. Hər bir fərd ailədə böyüyür, cəmiyyətə, dövlətə layiq vətəndaş kimi yetişir. Dövrün, zamanın tələblərinə uyğun yeniləşmə, təkmilləşmə qaçılmaz prosesdir. Bu proses bütün dünya dövlətlərində yaşanır. Təbii ki, bu təkmilləşmələr dəyərlərin aşınmasına deyil, inkişafa yol açmalıdır. Azərbaycanın uğurlarını həzm edə bilməyən qüvvələr öz çirkin məqsədlərini həyata keçirmək üçün gənclərdən bir vasitə kimi istifadə etməyə çalışırlar. Gənclərimizi bu təsirlərdən qorumaq əsas tələblərdəndir.

Ümumiyyətlə, ailə dəyərlərinin qorunmasında cəmiyyətin və dövlətin bütün institutları fəal olmalıdır. Cəmiyyətin hər bir üzvü əməli ilə ailələri narahat edən problemlərin həlli istiqamətində dövlətə yaxından köməklik etməlidir. Kiçik dövlət kimi dəyərləndirilən ailələrin möhkəm və sağlam olması, aztəminatlı ailələrin sosial problemlərinin həlli daim dövlətin diqqətindədir. Dövlət hər bir vətəndaşının yanında olmaqla onun yüksək rifah şəraitində yaşamasını təmin edir. İnsan amili Azərbaycan dövlət siyasətinin əsasını təşkil edir. Bu, dövlətin vətəndaşına olan diqqətinin bariz nümunəsidir.



## Gənclərin üzərinə böyük məsuliyyət düşür



Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Lənkəran şəhərində gənclərlə görüşüb. SİA-nın məlumatına görə, görüşdə B.İslamov gənclərin təhsil səviyyəsinin, bilik və bacarıqlarının daha da yüksəldilməsinin vacibliyini bildirib. Qeyd edib ki, gənclərimiz təhsil almaqla bərabər həm də ictimai fəaliyyətlə məşğul olmağa daha böyük maraq göstərməlidirlər. Partiyamızın Sədri, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə regionlarımızda gənclərimizin inkişafı və asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif təyinatlı infrastrukturlar yaradılıb. Gənclərimiz bu imkanlardan geniş şəkildə yararlanaraq öz təşəbbüslərini reallaşdıra bilirlər.

B.İslamov bu bölgədən olan gənclərin ölkəmizin ictimai həyatında xüsusi fəallığa sahib olduğunu bildirərək, onların üzərinə regionun daha da inkişaf etdirilməsi üçün böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıb. Vurğulayıb ki, keçirilən görüşün məqsədi də məhz onların fikirlərini öyrənərək, həyata keçirilən tədbirlərin effektivliyini təmin etməkdir. Görüşdə gəncləri maraqlandıran çoxsaylı suallar da cavablandırılıb.

## Tədrislə bağlı yeni qaydalar nələrdir?

### TƏHSİL EKSPERTİ AÇIQLADI



***“Bu gündən artıq məktəblər ənənəvi formada təhsili davam etdirirlər. 1 və 4-cü siniflərdə artıq bütün Respublika ərazisində tədrisə əyani formada başlanılıb. Sentyabrın 29-dan sonra isə 5 və 11-ci siniflər, peşə müəssisələri və ali təhsil müəssisələri ənənəvi formada təhsilə başlayacaqlar".***

Bu sözləri SİA-ya açıqlamasında Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi və fəlsəfə doktoru İlqar Orucov deyib. Onun sözlərinə görə, bu gün 1 və 4-cü siniflərə gedən şagirdlərin sayı 643 min 333 və ilk dəfə 1-ci sinifə məktəbə qədəm qoyan birincilərin sayı isə 158 min 608 nəfərdir: ”Əlbəttə ki, qaydalar mütləq şəkildə Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada tənzimlənəcək. Artıq bu gün Nazirlər Kabinetinin müvafiq qərarı Baş Nazir Əli Əsədovun imzası ilə təsdiq olundu və o qaydalarda bütövlükdə tədrisin başlanması ilə əlaqədar olaraq bütün normalar öz əksini tapıb. Bununla bağlı artıq Təhsil Nazirliyi tərəfindən bütün təhsil müəssisələrinə müvafiq tapşırıqlar verilib, məktəblərdə təhsil alanların və təhsil verənlərin davranışları, ara məsafəsi ilə bağlı eyni zamanda, dərs otaqlarının, bütövlükdə məktəbin sanitar normalara uyğun olaraq dezinfeksiya edilməsi, təhsil alanların və təhsil verənlərin temperaturunun ölçülməsi, koronavirus olacaq xəstələr üçün ehtiyyat otaqlarının olması və s. qərarda öz əksini tapıb”.

İlqar Orucov sözlərinə belə davam edib: ”Bu qaydalara davam etməklə ənənəvi təhsili uğurla davam etdirəcəyik. Nə qədər riskli olsa da bu addımı atmaqda çox cidid zərurət var idi. Çünki, ənənəvi təhsilin davam etdirilməsi keyfiyyətli təhsil vermək və almaqla bağlı ciddi problemlər yaratmışdı. Bütün bunlarla bağlı çox müsbət qərarlar verilib və əminəm ki, təhsil müəssisələri də bu qərarlara ciddi əməl edəcəklər”.

*Ayşən Vəli*



# Azərbaycan-Türkiyə-Pakistan: dostluq və qardaşlığa söykənən əməkdaşlıq

## *Azər Süleymanov: "Üç qardaş - 2021" beynəlxalq təlimləri mövcud dostluğun daha bir ifadəsidir"*

***"Müasir dünyada üçtərəfli Azərbaycan-Türkiyə-Pakistan arası əməkdaşlıq platforması ölkələr arasında münasibətlərin daha da dərinləşməsinə və inkişafına töhfədir.***

Hər üç ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq mövcud münasibətlər keyfiyyətcə yeni müstəviyə keçib. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan Türkiyə və Pakistan əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Hər üç dövlət qardaş və müttəfiq ölkələrdir və dövlətlərarası münasibətlərdə xüsusi rol oynayan dostluq, qardaşlıq münasibətləri strateji tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə müsbət təsirini göstərir. Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş-2021" beynəlxalq təlimi ölkələrin hər bir sahədə əməkdaşlığının davamlı olduğunu və dostluğa və qardaşlığa söykəndiyini göstərmiş oldu".

Bu sözləri "SİA" ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov bildirib. Onun sözlərinə görə, dövlətlərarası münasibətlər 44 günlük Vətən müharibəsi dövründə özünü bir daha büruzə vermiş oldu: "Türkiyə və Pakistan Azərbaycanın yanında olaraq, Azərbaycanın haqq işinə öz dəstəklərini ifadə etdilər. Dövlətlərin ölkəmizə həm siyasi, həm də mənəvi dəstəkləri yaxın dost və qardaş ölkələr kimi tarixə düşdü və Azərbaycan dostu ilə düşmənini bir daha siyasi proseslərdə görmüş oldu. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. Azərbaycanın suverenliyini ilk tanıyan ölkələrdən biri kimi Pakistan Ermənistanın Azərbaycana qarşı təcavüzünə, terrorçuluğuna, mülki insanlara qarşı hücümlarına laqeyd olmadı. Vətən müharibəsində Pakistan Senatı və Milli Assambleyası tərəfindən qətnamələr qəbul edildi. Təbii ki, bu münasibət dövlətlərimiz arasında əlaqələrin inkişafından və səmimi qardaşlıq münasibətlərindən qaynaqlanır".

Rayon təşkilatının sədri bildirdi ki, Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə Pakistan Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb: "44 günlük Vətən müharibəsində qardaş Türkiyə ilə birlikdə Pakistanın Azərbaycanın yanında olması Azərbaycan-Türkiyə-Pakistan qardaşlığınının sarsılmazlığının göstəricisidir. Bu gün işğaldan azad olunan ərazilərdə bütün şəhər və ölkə boyu



Azərbaycanla yanaşı, Türkiyə və Pakistan bayraqlarının dalğalanması möhkəm birliyi özündə ehtiva edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın Zəfər qazandıqdan sonra da daim yanında olması və Möhtəşəm Zəfər paradında iştirakı hər şeyi demiş oldu. Bu, dünyaya bir mesaj idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxışı zamanı da Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsinə toxunub. O, bildirib ki, Azərbaycan qanuni müdafiə hüququndan istifadə edərək və BMT Təhlükəsizlik Şurasının icra edilməmiş qətnamələrini həyata keçirərək, öz torpaqlarının işğalına son qoyub. Bu, Azərbaycanın haqq işinə verilən dəstəkdir.

Azərbaycanın Qarabağ uğrunda ağır müharibə şəraitində yaşadığı dövrlərdə beynəlxalq münasibətlərdə Pakistan rəsmilərinin dünya dövlətlərini BMT, İKT kimi nüfuzlu təşkilatlarda Ermənistanı təcavüzkar ölkə kimi tanınmasına çağırmasını da xüsusi olaraq qeyd etmək yerinə düşər. 2020-ci ilin sentyabrın 27-də Azərbaycana qarşı işğalçı Ermənistanın həyata keçirdiyi hərbi təxribata Pakistanın qardaş Türkiyə ilə birlikdə Azərbaycanın yanında olduğunu bəyan etməsi bu ölkələrin qardaşlığını bütün dünyaya nümayiş etdirdi. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. Ağrı-acını bizimlə birgə yaşadılar və zəfərimizi də öz Zəfərləri tək qəbul etdilər".

Bakı Bəyannaməsinin əhəmiyyətinə nəzər salan rayon təşkilat sədri bu Bəyannamənin dövlətlərarası qarşılıqlı hörmət və etimad əsasında mövcud əlaqələrin inkişafında xüsusi rola malik olduğunu söylədi: "Əlbəttə ki, Bəyannamədə əks olunan bəndlər Azərbaycan-Türkiyə-Pakistan münasibətlərinin inkişafına, regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa böyük töhfədir. Bu birlik daha böyük və geniş layihələrin reallaşmasına əsas olacaq, dövlətlərarası sahələrdə müxtəlif sahələri əhatə edən işbirliyinin uğurla davam etdirilməsində müstəsnadır. Bəyannamədə bu gün dünya üçün önəmli olan məsələlər diqqətdən kənarda qalmayıb. Xaricdən dəstəklənən terror hücumlarının təhdidi, kiber hücumlar, hibrit müharibələri, hədəfli dezinformasiya kampaniyaları və bir çox ölkədə müsəlman cəmiyyətlərinin sülh içində bir yerdə yaşamasına təsir göstərən məqamlar diqqətdən kənarda qalmayıb. Hər üç dövlət regional və beynəlxalq parlamentar platformlarda islamofobiya və müsəlman azlıqlara yönələn təzyiqlərə qarşı mübarizə məsələsində birgə fəaliyyət göstərəcəklər. Bəyannamədə hər üç dövlətin qarşılıqlı maraq kəsb edən regional və qlobal mövzularda yaxından fəaliyyət göstərməyə hazır olduqları öz əksini tapıb. Bu sənəd ölkələr arasında strateji əlaqələrin möhkəmlənməsinə öz töhfəsini verəcək".

Təbii ki, bu və ya digər əlaqələr dövlətlərin əməkdaşlığında daha yeni üfüqlər açır. "Üç qardaş - 2021" beynəlxalq təlimlərinin keçirilməsi mövcud dostluğun daha bir ifadəsidir, - deyən A.Süleymanov bildirib ki, həyata keçirilən birgə layihələri, əməkdaşlığı müasir dövlətlər görür və bir mesaj olaraq dünyaya çatdırılır: "Hər üç ölkənin hərbi qulluqçuları arasında aparılan geniş təcrübə və fikir mübadiləsi, onların peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfədir. Bu təlim bütün sahələrdə olduğu kimi dövlətlərin orduları arasında mövcud olan əlaqələrin daha da gücləndirilməsində müstəsna rol oynayacaq. Təlim dost və tərəfdaş ölkələrin xüsusi təyinatlı bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, sülh və müharibə dövründə əməliyyatlara hazırlanması, bilik və təcrübə mübadiləsinin aparılması məqsədi daşıyır. Bu, Azərbaycan, Pakistan və Türkiyə arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin, eləcə də qarşılıqlı faydalı əməkdaşlığın daha bir təzahürüdür".

***Nəzakət ƏLƏDDİNQIZI***



# Seyran Ohanyandan ETİRAF: "Bu vəziyyətdə suverenlikdən danışmaq mümkün deyil"

Mövcud hakimiyyətin dövründə ölkənin sərhədləri, ərazi dəyəri təhlükə altında olduğu halda, suvereblikdən danışmaq mümkün deyil. SİA xəbər verir ki, bu sözləri "Ermənistan" fraksiyasının rəhbəri, keçmiş müdafiə naziri Seyran Ohanyan deyib. O, bu gün jurnalistlərə açıqlamasında belə bir reallıqda suverenlikdən danışmağın belə mümkünsüz olduğunu deyib. Seyran Ohanyan qeyd edib ki, ölkənin suverenliyini bərpa etmək üçün ruhlanmaq və mübarizə aparmaq tələb olunur.

"Bir erməni üçün nə vaxt asan olub, erməni asan vəziyyətdə yaşayıbmı? Həmişə mübarizə aparıb, həmişə çətinlikləri olub. Güc toplamaq və vəziyyətdən çıxmaq üçün çalışmalıyıq", deyib Ohanyan. Seyran Ohanyan onu da deyib ki, 21 sentyabrda Respublika Meydanında keçirilən tədbirlərə qatılmaq üçün "Ermənistan" fraksiyasına səlahiyyətlilərdən dəvət gəlib, lakin fraksiya iştirakdan imtina edib.

***İnam Hacıyev***

# Ceyms Şarp: "Bu gün Bakı şəhərinin küçələri öz təmizliyi ilə seçilir"



Artıq üç ildir ki, Bakı Şəhəri İcra Hakimiyyəti Böyük Britaniyanın "Mott MacDonald" şirkəti ilə birgə paytaxtımızda bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunmasının müasir səviyyədə təşkili ilə bağlı layihəni uğurla həyata keçirir. SİA xəbər verir ki, əvvəlcə pilot layihə kimi Nərimanov rayonunda başlanan layihə daha sonra mərhələli şəkildə daha 3 paytaxt rayonunda - Nizami, Nəsimi və Yasamal rayonlarını da əhatə edib.

Sakinlərlə aparılan təbliğat və maarifləndirmə işləri nəticəsində layihənin tətbiq edildiyi 4 rayonda müsbət nəticələr əldə edilib. Əldə edilən nailiyyətlər paytaxtın digər rayonlarının da mərhələli şəkildə bu layihəyə qoşulmasına imkanlar yaradır.

Qeyd edək ki, ilk günlərdən layihənin icrası Bakı Şəhəri İcra Hakimiyyəti tərəfindən nəzarətdə saxlanılır. Bundan əlavə, "Mott MacDonald" şirkətinin rəhbərliyi və nümayəndələri xüsusi yaradılmış BŞİH-nin bərk məişət tullantılarının idarə edilməsi üzrə Monitorinq Mərkəzində tullantıların kompozisiya tərkibinin və çeşidləmə səviyyəsinin yoxlanılmasına nəzarət edirlər.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin Monitorinq Mərkəzinə gələrək birgə layihənin həyata keçirilməsi ilə bağlı görülən işlərlə yaxından tanış olub. Səfirə layihənin tətbiqi və qazanılan uğurlar barədə ətraflı məlumat verilib.



# Kişiliyin EDAMI...

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Beşikdən məzara qədər hər bir azərbaycanlının qanında, canında daşıdığı kişilik meyarının, özündən zəifə əl qaldırmamaq və onu qorumaq, ən qatı düşmənin belə namusuna sahib çıxılan, məşhur fransız səyyahı Aleksand Dümanın biz azərbaycanlılar haqqında söylədiyi "ağızdan çıxan hər kəlmənin min möhürdən etibarlı olduğu", ailə dəyərlərinin uca tutulduğu zamanlar. Xatırladınızmı?,- retroya çevrilən zamanlar...***

Kişi qeyrətinin, qadın ar-namusunun HEÇ VAXT milyonlara dəyişdirilmədiyi, ən bahalı dəyər kimi göz bəbəyi kimi qorunduğu zamanlar... Bu yazdıqlarım hansısa əfsanə, rəvayət deyil, bir xalqın ən yaxın keçmişidir. Lap aydın ifadə edim: yuxarıda sadaladıqların bilirsiniz nədir?,- bu gün EDAM edilən milli dəyərlər sistemimizdir, geylərin, transların, nə bilim qadınlıq həyasını 13-14 yaşında ayaqlar altına atıb, bu gün efirlərdə müasir fahişəliyi reklam edənlərin həşərat kimi canına daraşıb məhv etdikləri MİLLİ KİMLİYİMİZDİR!

Mən açıq, düzü düz, əyrini əyri yazmağın həmişə keşiyində durmuşam. Ona görə ki, yüz illər sonra bu gün yazacağım yalançı təriflər yox, gerçək HƏQİQƏT xatırlanacaq. Biz mütləq həqiqəti yazmalıyıq ki, gələcək nəsillərə baş verənləri, olub-keçəni, xüsusilə milli qüsurlarımız barədə düzgün olanı çatdıraq. Yalan və saxta yazdıqların daima sənə lənət oxutduracaq, bu mübahisəsiz gerçəklikdir. Niyə milli qüsurlarımızı xüsusilə qeyd edirəm?,- çünki milli qüsurlarımızı qəbirə yuvarlanan qoca kimi örtbasdır etməklə, əslində, gələcək nəsillərə üzəri basdırılmış üfunətli zibillik "hədiyyə" etməli olacayıq. Bu isə əsl bağışlanılmaz cinayətdir, əfv olunmayacaq cinayət...

Rəhmətlik Məhəmməd Füzuli, Nizami Gəncəvi, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov və digər nəhəng ediblər hey milli qüsurlarımızdan yazıb düzəlməyimiz üçün bar-bar bağırırdılar. Ahaman edib bu qüsurlara son verməyə şağırırdılar, amma çi fayda, olmadı ki, olmadı!

Yox, olmadı, biz yenə yüz illər öncəki milli qüsurlarımızı özümüzlə bu günlərə, - düz iyirmi birinci əsrə qədər gətirib çıxaran kəslərik. Yenə özündən zəifi əzmək, kasıb-kusubun boğazını kəsmək, başqasının haqqını qamarlayıb əlindən almaq, qanuna nifrət edib, rüşvətlə min bir işi "aşırmaq" ənənəsi, kütbeyinlərin kreslolara daraşması, bəəəə-lərin, mooo-ların dəyərli insanları günlərlə qapı arxasında gözlətməsi, özündən asılı salmağı elə bu günümüzdə də bizim "yanımızdadır".

Biz faytondan "Bentley"ə, "Rols-Rolce"ə atladıq, internet, sosial şəbəkə əsrinə gəldik, amma bu qüsurlar da internet əsrində belə, şüurlarımızda özünə möhkəm yer edib. Ata bilmirik başımızdan bu qüsurlu düşüncəni, sanki gənə kimi daraşıb qanımıza, gələcəyimizi də, dəyərlərimizi də alır əlimizdən. Gələk əsas MƏTLƏBƏ.

Mətləb də odur ki, rəzil vəziyyətdə olan efirlərimizdən bir də KİŞİLİK DƏYƏRLƏRİMİZ barədə rüsvayçı şoular baş alıb gedir. Efirlərdə təşkil edilən rəzalət dolu "şoular" elə bil həddə çatıb ki, kişilik dəyərlərinin bilərəkdən gözdən salınması adi hala çevrilib. Təsəvvür edin ki, arvadı evdən qaçan "kişi" efirə çıxıb həftələrdir küçələrdə sürünən "qaçaq arvadının" ayaqlarına sarılır, onu yenidən qəbul etdiyini elan edir, biri qatarda arvadının başqası ilə "yatdığı" barədə anons verir, üstəgəl də bunun müasir sevgi və "ailə" anonsu olduğunu təbliğ edir.

Hələ mən gey, mavi xəstələrin, küçə fahişəsi olan əxlaqsız "şoumen gözəlçələrin" efirlərdə kişiliyi gözdən salan alçaq hərəkətlərini demirəm. Açıqdan açığa bu xalqın min illərdir günümüzə gəlib çatan KİŞİLİK RUHU qəsdli şəkildə ayaqlar altına atılır, əvəzində yeniyetmə gənclərə gey və mavi xəstələrin alçaqlıqları nümunə kimi göstərilir. Əzizlərim biz elə bir faciə ilə üz-üzəyik ki, bunun miqyası və tərifi yoxdur. Qarabağı 30 il sonra döyüşlə qaytara bildiksə, mənəvi dəyərlərimizi geri qaytarmağımız mümkünsüzdür!

Min illərdir ki, ata-babalarımızdan bizə gələn mənəvi dəyərlərimiz bu gün geylərin, ləçərlərin dar ağacından asılıb. KİŞİLİYİMİZƏ və DƏYƏRLƏRİMİZƏ sahib çıxaq, sabah çox, lap çox gec olacaq...

# Azərbaycan brendi "ASAN xidmət"ə maraq artır

***Bu gün dünya ölkələri sosial xidmətlər sahəsində Azərbaycanın yeni brendi olan "ASAN xidmət"in təcrübəsini öyrənir. "ASAN xidmət"in uğurlu layihə olması qısa bir zamanda onun beynəlxalq mükafatlara layiq görülməsi, yüksək qiymətləndirilmsəi ilə nəticələndi. "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilib.***








Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunub və Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. Bu sırada bir neçə beynəlxalq dərəcəli sertifikatlara layiq görülməsi də qeyd olunmalıdır. Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Cənab İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq təşkilatlar "ASAN xidmət"in fəaliyyətini yüksək qiymətləndirirlər: "BMT "ASAN"ı fərqləndirib, mükafat verib. Bu da əlbəttə ki, görülən işlərin nəticəsidir". "Uğur 2013" "səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə" nominasiyasının qalibi olub. Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən, qabaqcıl idarəetmə üzrə "ISESCO-nun ASAN mükafatı" təsis olunub. Əlbəttə ki, "ASAN xidmət"ə olan maraq gündən-günə artmaqdadır. Vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə yaradılan "ASAN xidmət" vətəndaş marağına xidmət edir. Vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq dərəcəsi 98-100% arasında dəyişir.

## ICESCO-YA ÜZV ÖLKƏLƏR AZƏRBAYCANIN TƏCRÜBƏSİNDƏN İSTİFADƏ ETMƏLİDİRLƏR

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının Baş direktoru xidmətin fəaliyyətini yüksək qiymətləndirərək qeyd edib ki, 4-cü sənaye inqilabı dövründə "ağıllı xidmətlərin" tətbiqi böyük əhəmiyyətə malikdir və təşkilata üzv ölkələr Azərbaycanın təcrübəsindən istifadə etməlidirlər. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, "ASAN xidmət"in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi: "İctimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Amma artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət var və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq".

Bu günün reallıqları deməyə əsas verir ki, "ASAN xidmət"in coğrafi əhatəsi genişlənir və xidmətlərinin sayı artır. Bu, əlbəttə ki, ölkəmizin dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulub. Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni bir mərhələ açan Azərbaycan brendi şəffaflığı, operativliyi ilə vətəndaş məmnunluğu yaradıb.

**Zümrüd BAYRAMOVA**

# Vüqar Rəhimzadə: "Prezidentin Qarabağla bağlı müəyyənləşdirdiyi yol xəritəsi uğurla icra edilir"



"Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşərək Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçən əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il İkinci Qarabağ savaşının başlandığı gün-sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd ediləcək. Bu günün şəhidlərin əziz xatirəsinin Anım Günü kimi qeyd edilməsi təsadüfi deyil. Çünki 44 günlük Vətən müharibəsi Azərbaycanın qətiyyətli mövqeyinin, xalqımızın məğrurluğunun, yenilməzliyinin, torpağa bağlılığının, Vətən sevgisinin təqdimatı oldu. Vətən müharibəsinin davam etdiyi günlərdə xalqa bütün müraciətlərində, xarici mətbuata müsahibələrində Azərbaycanın danışıqlar masası ətrafında hansı şərtlər daxilində oturacağını bəyan edən dövlət başçısı Ermənistanın baş naziri Nikol Paşinyanın diz çökəcəyini, gec-tez yalvarışlar edib danışıqlara gələcəyini diqqətə çatdırırdı.

Ötən il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları birgə Bəyanat ölkəmizin möhtəşəm hərbi-siyasi Qələbəsini, Ermənistanın biabırçı məğlubiyyətini təsdiqləmiş oldu. 44 günün hər anının tələbi, əsas çağırışı bu idi ki, bütün torpaqlarımız işğalçılardan təmizlənməli, ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Başqa cür ola da bilməzdi. Çünki təcavüzün davam etdiyi 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızda qurulan keçilməz istehkamlar, Ermənistanın qeyri-qanuni yollarla silahlandırılması Azərbaycana qarşı qurulan bir çox çirkin planlara aydınlıq gətirmişdi. Şübhəsiz, sülh danışıqları adı altında müharibəyə hazırlıq görən, himayədarları tərəfindən durmadan silahlandırılan Ermənistan hər halda belə hiyləgər addımlarının özü üçün ağır sonluqla başa çatacağını anlamamış deyildi. Ona görə ki, Azərbaycan daim ən yüksək tribunalardan sülh danışıqları səmərə verməyəcəyi təqdirdə müharibə variantına əl atmağa məcbur olacağını bəyan edəndə Ermənistan və onun havadarları bunu Azərbaycanın sülh danışıqlarından imtinası kimi təqdim edirdilər. 44 günlük İkinci Qarabağ müharibəsi onların bu mifini də darmadağın etdi. Tarixi torpaqlarımızda işğalçı Ermənistan ordusunu məhv edərək, erməni cəlladlarını cəzalandıraraq, şəhidlərimizin qisasını alaraq 30 ilə yaxın yolumuzu gözləyən doğma Qarabağımıza qalib kimi qayıtdıq. Bu gün tarixi ərazilərimizdəyik və doğma torpaqlarımızda əbədi olacağıq". Bu fikirləri SİA-ya YAP Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, hər zaman xalqına güvənən, onun dəstəyinə arxalanan Prezidentə xalqın sonsuz məhəbbəti şəksizdir: "Vətən müharibəsinin davam etdiyi 44 gündə xalqın orduya inamı və dəstəyi, həmçinin ölkədə yaşanan milli birlik və siyasi həmrəylik Qələbəmizin ideoloji əsasına çevrildi. Ölkə Prezidenti xalqın dəmir yumruq kimi birliyinin təminatçısı oldu. Siyasətdə, döyüş meydanında, diplomatiyada və hərbi strategiyada üstünlük qazanmış Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Zəfərimizin müəllifi kimi adını tarixə əbədi yazdı. Ölkə Prezidentinin möhtəşəm Qələbəmizlə başa çatan postmüharibə dövrünün ilk günlərindən başlayaraq işğaldan azad edilmiş ərazilərimizə hər bir səfəri qalib xalqın qəhrəman Ali Baş Komandanının bu müqəddəs torpaqlarımızı ziyarət etməsi kimi dəyərləndirilir. Bu səfərlər çərçivəsində Prezident İlham Əliyev diqqəti 30 illik işğal dövrünün reallıqlarına, bir çox aparıcı dünya dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatların ikili standartlara söykənən siyasətinə, Ermənistanın ona edilən havadarlıqdan daha da ruhlanaraq yeni ərazilərlə bağlı müharibə planları hazırlamasına yönəldərək bu addımların sonda işğalçı dövlətin diz çökməsi ilə nəticələnməsini böyük qürur hissi ilə qeyd edir. Bildirir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində beynəlxalq səviyyədə tanınan ərazilərimizdən Ermənistanın işğalçı qoşunlarının dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi qurumun çox mühüm siyasi bir jesti idi. Lakin əfsuslar olsun ki, 30 ildə bu qətnamələr icra olunmadı. Dövlət başçısı BMT tribunasından daim Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin olmaması məsələsini qaldıraraq bəyan etmişdir ki, bəzi hallarda qətnamələr qısa müddət ərzində icra olunur, lakin Azərbaycana gəldikdə isə onların icrası nədənsə "yaddan çıxır." Azərbaycan cəmiyyətini daim ciddi narahat edən əsas məsələ bu qətnamələri qəbul edən, Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkədən üçünün- ABŞ, Fransa və Rusiyanın artıq tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli missiyasını öz üzərinə götürən ATƏT-in Minsk qrupunun həmsədrləri kimi öz vəzifələrinə biganə yanaşmaları, əksər hallarda təcavüzkarın yanında olmaları idi. Onların həmsədr ölkə missiyalarını ona görə keçmiş zamanda qeyd edirik ki, münaqişə artıq başa çatmışdır və bu günün reallığında 28 ildə mandatına uyğun addım atmayan qurumun fəaliyyətinə ehtiyac yoxdur. Çünki Minsk qrupu ötən 28 ildə çox imkanları əldən verib. Prezident İlham Əliyev bəyan etdiyi kimi, əgər Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, Minsk qrupunun həmsədrləri, dünyanın üç aparıcı ölkəsi potensialının 5 faizini Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə inandırmağa və ya məcbur etməyə istifadə etsəydi, müharibə baş verməzdi. Odur ki, müharibənin baş verməsinə görə məsuliyyət təkcə Ermənistanın deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür".

YAP Xətai rayon təşkilatının sədri bu fikri böyük qürur hissi ilə qeyd edib ki, bu gün artıq Azərbaycan diktə edən tərəfdir və Ermənistan məğlub ölkə kimi Azərbaycan Prezidentinin fikirləri ilə hesablaşmağa məhkumdur: "Dövlət başçısı işğalçı Ermənistanın ona təklif olunan sülh təklifinə laqeyd münasibətinə qarşı bu bəyanatı səsləndirir ki, əgər sülh müqaviləsi imzalanmasa, peşman olan tərəf Ermənistan olacaq. Çünki Azərbaycan bu təklifi masa üzərində əbədi saxlamalı deyil".

"Prezident İlham Əliyev sülh müqaviləsinin imzalanmasının zəruri şərt olduğunu vurğulamaqla bir daha öz siyasi iradəsini və Azərbaycanın dəyişməz mövqeyini ortaya qoydu" söyləyən V. Rəhimzadə bildirib ki, İkinci Qarabağ müharibəsinin qalibi olan rəşadətli Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı bütün çıxışlarında Ermənistana və havadarlarına mesajlar verir. Dövlət başçısı hər dəfə onlara xatırladır ki, "dəmir yumruq" yerindədir.

V. Rəhimzadə vurğulayıb ki, bütün dünya bu reallığın şahididir ki, Prezident İlham Əliyev Qarabağla bağlı müəyyənləşdirdiyi yol xəritəsini uğurla icra edir: "Dövlət başçısının iqtisadi rayonların yenidən bölgüsü ilə bağlı Fərmanı əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması da 30 ildən artıq davam edən münaqişənin tarixə qovuşduğunu, Cənubi Qafqaz regionunda yeni geosiyasi səhifənin açıldığını təsdiqləyir. Tezliklə Zəngəzur dəhlizinin açılması isə Azərbaycanın dövlət başçısının təklif etdiyi yeni əməkdaşlıq formatının yaranması üçün real zəmin yaratmış olacaq. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa və quruculuq işləri Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışı yaxınlaşdırmaqla 2030-cu ilə qədərki dövrü əhatə edən Milli Prioritetlərin uğurla reallaşacağına əminliyi artırır".

# "Ermənistan düşdüyü çətin vəziyyətinə görə, ilk növbədə..."

***"Gürcü jurnalistlərə Azərbaycan reallıqlarını öz gözləri ilə görmək üçün işğaldan azad olunmuş torpaqlara səfərinə görə təşəkkür edirəm. Bu səfər onların obyektiv olmaq, Azərbaycan reallığını olduğu kimi görmək istəyindən irəli gəlir. İnanıram ki, öz reportajlarında, yazılarında bunu olduğu kimi verəcəklər". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib.***

Onun sözlərinə görə, bu cür səfərlər çox vacibdir: "Məsələ burasındadır ki, dünyada bu gün yalançı erməni təbliğatı hələ də ayaq üstədir. Onlar istənilən situasiyadan beynəlxalq birliyi aldatmağa, özlərinin etdiklərini Azərbaycanın adına yazmağa, özlərini məzlum xalq kimi göstərməyə çalışırlar. Əslində isə Xocalı soyqırımını törədən, işğal edilən ərazilərimizdə 67 məsciddən 64-nü dağıdan, qəbir daşlarını belə sökən toplumun nə dərəcədə mədəniyyətə, qədim tarixə malik olduğunu söyləmək bir qədər çətindir. Bu gün Ermənistan düşdüyü çətin vəziyyətinə görə, ilk növbədə özünün hərəkətlərinin nəticəsi olduğunu bilməlidir. Azərbaycana səfər edən, işğaldan azad olunmuş ərazilərə ezam edilən xarici ölkələrin jurnalistləri, vətəndaşları, QHT nümayəndəri bu gün işğal altında olan Azərbaycan torpaqlarının vəziyyəti, işğaldan azad olunandan sonra həmin yerlərin bərpası üçün Azərbaycan dövlətinin çəkdiyi zəhməti müqayisə edə biləcəklər. Azərbaycan öz torpağının sahibidir. Böyük çətinliklərlə, böyük qurbanlar verərək öz torpaqlarını işğaldan azad etdi. Bundan sonra da həmin əraziləri dünyanın ən gözəl guşələrindən birinə çevirmək üçün böyük səylər göstərir. Bütün bunları xarici ölkələrin nümayəndələri görür və obyektiv qiymətləndirirlər".



***Arzu Qurbanzadə***

# "Texnofest-2021" festivalının əhəmiyyəti nədən ibarətdir?



"Türkiyədə keçirilən "Teknofest-2021" festivalına Azərbaycan hərbi hava qüvvələrinin dəvəti Azərbaycan Türkiyə arasında olan dostluğu, qardaşlığı təsdiq edən bir dəvətdir. Azərbaycanın hərbi hava qüvvələri qısa bir zamanda böyük inkişaf yolu keçmiş və son zamanlarda bu Vətən müharibəsində özünü göstərmişdi. Hətta Türkiyədə 58 nişanlı bir təyyarə də bu hərbi təlimlərdə iştirak edirdi və hətta iki qardaş ölkənin nazirləri də o təyyarə ilə tanış olmuşdular. Yəni, artıq 44 gün ərzində 58 nişan və döyüş uçuşları, tapşırıqları və hədəfləri ilə bağlı olan məlumat Azərbaycan hərbi hava qüvvələrində xidmət edən pilotların peşəkarlığı haqqında danışıq göstəricisidir". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov deyib.

Onun sözlərinə görə, Azərbaycan pilotlarının Türkiyə pilotları ilə birgə təlimlərdə iştirakı ənənəvi haldır: "Artıq Azərbaycan hərbi hava qüvvələrinin pilotları Türkiyədə keçirilən həm hərbi hava qüvvələrinə aid olan təlimlərdə, həm də ki, digər təlimlərdə iştirakçıdırlar. Türkiyənin də pilotları Azərbaycanda təlimlərdə iştirak edirlər. Belə bir texniki festivalda da Azərbaycan hərbi hava qüvvələrinin nümayəndələrinin dəvəti Azərbaycan pilotlarının professionallığının göstəricisidir".

"Bilirsiniz ki, orada iki təyyarə, Azərbaycan pilotları Türkiyə pilotları ilə birgə nümunəvi uçuş aparacaqlar. İki qardaş ölkənin bir festivalda nümunəvi uçuş göstərməsinə mənə elə gəlir ki, bizim dostlarımız sevinəcək və alqışlayacaqlar. Düşmənlərimizə isə bu bir mesajdır ki, artıq Azərbaycan və Türkiyə birliyi bu qədər inkişaf edib və birgə fəaliyyət göstərirlər".

"Mən düşünürəm ki, bu həm də dostluğumuzun və qardaşlığımızın daha da möhkəm olmasını və əlbəttə Türkiyə şahinləri, pilotları ilə birgə nümayiş uçuşu aparmaq üçün yüksək pilotaja malik olan xüsusiyyətlərə malik olmalıdırlar. Düşünürəm ki, bizim pilotlar məhz bu tələblərə cavab verdiyi üçün həm hörmət, həm qardaşlıq, həm həmrəylik, həm də ki, professional bir pilotlar kimi dəvət ediliblər. Ona görə də bu bir daha Azərbaycanın pilotları bu gün peşəkarlığın, inkişafın göstəricisidir".

***Ayşən Vəli***

# QARABAĞA APARAN YOLLAR

***Qarabağlıların doğma torpaqlarımıza "Böyük qayıdış" həyəcanını yaşadığı bu günləri Azərbaycan yetərincə çox gözləyib. Qarabağa Zəfər yolu yetərincə mürəkkəb relyefdən keçsə də, demək olar ki, Azərbaycan ordusunun Azərbaycanın ürəyi Şuşaya qələbə yoluna bənzər bir sürətlə çəkilir. Daha doğrusu, artıq çəkilib. Prezident İlham Əliyevin regiona bu yaxınlarda etdiyi səfər çərçivəsində məlumat verildi ki, 2-3 zolaqlı Əhmədbəyli - Füzuli - Şuşa yolunun 101 kilometrinin artıq 92 kilometrində artıq asfalt-beton örtük çəkilib.***





Aqil Məmmədov
Politoloq

Daha bir rekord - Füzuli Beynəlxalq Hava Limanıdır. Dövlət başçısının qeyd etdiyi kimi, "bəlkə də, dünyada heç bir hava limanı belə sürətlə tikilməyib". Toğanalı - Kəlbəcər avtomobil yolunda Murovdağdan keçən 11,6 km uzunluqlu tunelin, Kəlbəcər - Laçın avtomobil yolundakı 3,4 kilometr uzunluqlu tunelin də tikintisi başlayıb - onların təməlləri Azərbaycan Prezidenti tərəfindən avqust ayının sonunda qoyulub. Bütün bunlar Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərində gerçəkləşdirilən genişmiqyaslı nəqliyyat infrastrukturunun yalnız bir hissəsidir.

Avtomagistrallar və tunellər

Beynəlxalq nəqliyyat marşrutlarına çıxış imkanları ölkənin və onun regionlarının iqtisadi dirçəlişinin əsas katalizatoru kimi çıxış edir. Çünki, nəqliyyat ümumi iqtisadiyyatın damar sistemi funksiyasını daşımaqdadır. Buna görə də, işğaldan azad edilmiş ərazilərin Azərbaycanın ümumi iqtisadi sisteminə sürətli inteqrasiyasını təmin etmək, eyni zamanda bu ərazilərin qısa müddət ərzində bərpası və mərhələli şəkildə doğma yurdlarına qayıdan sakinlər üçün əlverişli həyat şəraitinin təmin edilməsi məqsədi ilə ilk öncə nəqliyyat arxitekturasının qurulmasına start verildi.

Bu proses artıq sinergetik şəkildə bir-biri ilə bağlanmış aşağıdakı 3 kateqoriya formasında icra edilir: 3 hava limanının tikintisi; mövcud dəmir yolu xətlərinin bərpası; uzunluğu 700 kilometrdən çox olan avtomobil yollarının bərpası və yenilərinin tikintisi.

Son bəndlə bağlı qeyd edək ki, bu yolların 600 kilometrdən çoxu mövcud yolların bərpasını, 130 km dən çoxu isə yeni yol infratrukturunun qurulmasını nəzərdə tutur. Ümumilikdə, hər min 1000 kvadrat kilometr əraziyə 70 kilometr yol infrastukturu qurulur, bu da orta dünya miqyasından 2 dəfə çoxdur.

Yol infrastukturunun qurulması ərazilərdə məskunlaşma prosesini sürətləndirməklə yanaşı, həm də bu ərazilərə investisiya cəlbini asanlaşdıracaq. İşğaldan azad edilən ərazilərin böyük aqrar və sənaye potensialının olması məlumdur. Məlumdur ki, bu ərazilər kənd təsərrüfatı və sənaye üzrə böyük potensiala malikdirlər. Yol infrastrukturunun müasirləşməsi burada istehsal edilən məhsulların maya dəyərini aşağı salmaqla, onların rəqabət qabiliyyətini artıracaq ki, nəticədə, işğaldan azad edilmiş ərazilərdə istehsal edilən məhsullar həm yerli, həm də xarici bazarlarda daha tez mövqe tuta biləcəklər.

Sürətli iqtisadi inkişaf eyni zamanda əmək resurlarının yerdəyişmə proseslərini də sürətləndirəcək. Beləliklə, mərkəzdən işğaldan azad edilmiş ərazilərə təbii köç prosesi baş verəcək ki, bunun da nəticəsində həmin bölgənin əmək bazarı inkişaf edəcək və əməyin dəyəri yüksələcək. Nəticədə, işğaldan azad edilmiş ərazilərdə xidmət sektoru da inkişaf edəcək. İqtisadçı Pol Kruqmanın NEG - (New Economic Geography - yeni iqtisadi coğrafiya) nəzəriyyəsinə əsasən, A və B məntəqələri arasında ticarət logistik potensialın imkan verdiyi həcmdə olur. Başqa sözlə, ticarətdə məntəqələr arası məsafə onu qət etməyə sərf edilən vaxtın həcminə görə qiymətləndirilir.

İşğaldan azad edilmiş ərazilərdə yol arxetikturasının quruculuğunda diqqət yetirilən əsas məqamlardan biri də 365 gün 7/24 saat ərzində naviqasiyanın açıq saxlanılmasıdır. Ona görə də Toğanalı - Kəlbəcər avtomobil yolu üzərində 11,6 km uzunluğunda inşa ediləcək tunel həm nəqliyyat axınlarının sürətini artırmağa imkan verəcək, eyni zamanda bu göstərici üzrə Azərbaycanı dünyanın ilk 20 ölkəsinin sırasına çıxaracaq.

Bir faktı da nəzərə almaq lazımdır ki, Azərbaycan öz yol infrastrukturunu gələcəkdə Ermənistanla kommunikasiyaların açılması prespektivlərini nəzərə alaraq həyata keçirir. Bu isə o deməkdir ki, bir tərəfdən işğaldan azad edilmiş ərazilərin inkişaf etdirilməsi hədəflənirsə, digər tərəfdən bu layihələrin ötürücülük həcmi regionda kommunikasiyaların açılması perspektivlərinə hesablanıb. Kommunikasiyalar açıldıqdan sonra Qərbi Zəngəzur bölgəsinin Ermənistanın digər bölgələri ilə müqayisədə daha sürətlə inkişaf etmək şansı yaranacaq. Misal üçün, Meksikanın və Kanadanın ABŞ-la sərhəddə yerləşən regionları digər bölgələrlə müqayisədə daha sürətlə inkişaf edirlər. Bu isə onların daha yüksək dəyərli bazara daha sürətli çıxış imkanları ilə bağlıdır.

Dəmir yolu infrastrukturunun bərpası

Mövcud inkişaf etmiş ölkələrin tarixinə nəzər saldıqda məlum olur ki, onların tərəqqisi dəmir yolu infrastrukturu ilə sıx bağlıdır. Bu gün üçün dəmir yolu sistemi A və B məntəqəsi arasında müəyyən zaman kəsiyində ən çox mal və sərnişin daşıması qabiliyyətinə malik tək nəqliyyat növüdür.

Dahi mütəfəkkir İbn Haldun deyirdi ki, coğrafi mövqe hər bir xalqın taleyidir. Amma əksər hallarda bir çox uğurlu coğrafi mövqeyə malik olan ölkələrin necə əzildiyinin, mövqeyi yaxşı olmayanların isə necə çiçəkləndiyinin şahidi oluruq. Coğrafi mövqe hər ölkənin taleyi olsa da, ondan düzgün faydalanmağı yalnız uğurlu lideri olan xalqlar bacarır.

10 noyabr Bəyanatının imzalanmasından heç 100 gün keçməmiş Azərbaycan Prezidenti Horadiz-Ağbənd dəmir yolu xəttinin tikilməsinə start verdi. Bu nəqliyyat arteriyasının Naxçıvana qədər uzadılması üçün Ermənistan ərazisində 40 kilometrlik yolun bərpa edilməsinə ehtiyac var ki, bunu da Rusiya reallaşdıracaq. Çünki Ermənistan dəmir yolları borc qarşılığında Rusiya tərəfinin sərəncamına keçib. Ümumiyyətlə, bu nəqliyyat dəhlizi 30 illik fasilədən sonra tək region ölkələri üçün deyil, daha geniş coğrafiyada iqtisadi aktivliyə səbəb olacaq.

Naxçıvana birbaşa dəmir yolu xəttinin çəkilməsi Muxtar Respublika iqtisadiyyatının bütöv Azərbaycan iqtisadiyyatına inteqrasiyasını möhkəmləndirəcək. Bununla da, Naxçıvan 30 illik blokadadan çıxmaqla iqtisadi fəallığını artıracaq. Naxçıvan iqtisadiyyatına nəzər yetirsək, görərik ki, onun ÜDM-nin 27,6%-ni sənaye, 12.4%-ni isə kənd təsərrüfatı təşkil edir. Muxtar Respublika istər kənd təsərrüfatı, istərsə də emal sənayesinin genişləndirilməsi, turizmin canlandırılması üçün böyük potensiala malikdir. Lakin buradan məhsul ixracı baha başa gəlir ki, bu da, son nəticədə, imkanlardan maksimum faydalanmağa imkan vermir. Naxçıvanla Bakı arasında birbaşa dəmir yolu xəttinin istifadəyə verilməsi buradan ixracı sürətləndirəcək, bazarlarda Naxçıvan istehsalı olan məhsulların rəqabət qabiliyyətini artıracaq. Eyni zamanda dəmir yolunun istifadəyə verilməsi ilə Azərbaycan öz strateji tərəfdaşı olan Türkiyə ilə iki istiqamətdə nəqliyyat əlaqəsinin qurulmasına nail olacaq.

Digər tərəfdən avtomobil yollarında olduğu kimi, dəmir yolu nəqliyyatında da, Azərbaycanın Naxçıvanla birbaşa əlaqə yaratması Ermənistana müasir və sürətli nəqliyyat dəhlizlərinə çıxış imkanı verəcək. Belə ki, Ermənistan eyni anda Azərbaycan, Türkiyə, Rusiya və İranla birbaşa dəmir yolu xəttinə malik olacaq ki, bu da iqtisadi canlanmaya gətirib çıxaracaq. Xüsusən də, Ermənistanın cənubunda yerləşən dağ-mədən kompleksləri daha aktiv şəkildə işləyə biləcəklər və birbaşa Rusiya, Türkiyə bazarlarına çıxış əldə edəcəklər.

Dəmir yolunun istifadəyə verilməsi Türkiyənin İqdır və Qars bölgəsinə investisiyaların cəlb edilməsinə müsbət təsir göstərəcək. Adətən, ixracyönümlü şirkətlər daha çox nəqliyyat dəhlizlərinə asan çıxış olan ərazilərə investisiya yatırırlar. İxracyönümlü məhsullar isə əsasən daha yüksək dəyərli olur. Ona görə də Türkiyədə bu gün üçün əsas sənaye bölgələri sahil ərazilərində cəmləşib. Bu baxımdan dəmir yolu xəttinin işə düşməsi istehsalın Türkiyənin dərinliklərinə gəlməsinə müsbət təsir edəcək.

Ümumiyyətlə, Azərbaycanın təşəbbüsü ilə nəqliyyat kommunikasiyalarının tam şəkildə açılması təkcə region ölkələrinin deyil, ümumilikdə, Yaxın Şərq, Orta Asiya, Çin, Skandinaviya ölkələri, Ukrayna, Belarus və Yaponiyanın da iqtisadi maraqlarına tam cavab verir.

Dəhlizin tam şəkildə işə düşməsi Yaponiya - Rusiya - Azərbaycan - Ermənistan - Türkiyə - Yaxın Şərq nəqliyyat dəhlizinin yaranmasına təsir göstərəcək. Beləliklə, Azərbaycan Prezidentinin daha bir təşəbbüsü 30 milyon insanın yaşadığı böyük bir coğrafiyada xalqların birliyinə və firavan gələcəyinə təminat verir.

Hava qapıları

İşğaldan azad edilmiş ərazilərin nəqliyyat arxitekturası 3 hava limanı ilə tamamlanır. Füzulidə inşa edilən hava limanı artıq finiş nöqtəsinə çatmaqdadır.

"Hava limanının inşasına bu il başlanıldı. Dedim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də, dünyada belə sürətlə heç bir hava limanı tikilməyib. Uçuş-enmə zolağı artıq hazırdır. Burada son işlər gedir. Bir daha vurğulamaq istəyirəm ki, bu il hava limanının təməlini qoydum və indi tikinti işləri ilə tanış olacağıq. Bu hava limanı Qarabağın hava qapısıdır", - deyə dövlət başçısı Füzuli və Şuşaya bu günlərdə etdiyi səfəri zamanı bildirib.

Zəngilan və Laçın hava limanlarının tikinti işləri isə davam etməkdədir. İlk öncə, hava limanlarının işə düşməsi nəticəsində işğaldan azad edilmiş ərazilərə xarici turistlərin gəlməsi asanlaşacaq. Xüsusən də, Azərbaycan mədəniyyətinin paytaxtı Şuşaya indinin özündə belə gəlmək istəyən 10 minlərlə insan var. Ona görə tikilən Füzuli və Laçın hava limanları imkan verəcək ki, xarici ölkələrdən turistlər daha sürətli və sərfəli şəkildə bu regionu ziyarət etsinlər.

Eyni zamanda hava limanının inşası və yaxın gələcəkdə istifadəyə verilməsi yeni iş yerlərinin yaradılmasına da xidmət edəcək. Bu, xüsusən işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşan vətəndaşlarımızın məşğulluğunun təmin olunması baxımından da vacibdir. Ümumiyyətlə, heç kəsə sir deyil ki, hava limanlarında xüsusi bilik və bacarıq tələb edilən peşəkarlar çalışır və hava limanının idarə edilməsi çətin texnoloji prosesdir. Ona görə də bu məkanlarda orta əməkhaqqı həmişə yüksək olub. Bu baxımdan, bu regionda ilk dəfə olaraq yüksək dəyərli iş yerləri yaradılır.

Xüsusi diqqət cəlb edən əsası bu ilin avqust ayında Prezident İlham Əliyev tərəfindən qoyulmuş Laçın Hava Limanıdır. Bu liman Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olmaqla yanaşı, bütövlükdə çətin relyefdə inşa edilən hava limanı baxımından da fərqlənəcək. Bu limanı regionun ən faydalı hava limanı olmağa namizəd hesab etmək olar. Qonşu Kəlbəcər rayonunun dağlıq ərazidə yerləşdiyini və qış aylarında naviqasiyanın çətinləşməsini nəzərə alsaq, o zaman Kəlbəcərin mərkəz Bakı və dünya ilə bağlantısında Laçın hava limanı müstəsna potensiala malik olacaq.

Ona görə də Laçın hava limanını sadəcə iqtisadi deyil, eyni zamanda sosial layihə kimi qiymətləndirmək olar. Bu hava limanı qonşu rayonlara geri dönüşü sürətləndirməklə yanaşı, regionda yaxın zamanlarda bir sıra yay və qış turizm mərkəzlərinin yaranmasında töhfə verəcək.

Laçın və Zəngilan hava limanlarının sosial-iqtisadi mahiyyəti ilə yanaşı, hərbi strateji mahiyyəti də mövcuddur. Bu hava limanları Ermənistan - Azərbaycan dövlət sərhədinə ən yaxın məsafədə yerləşdiyindən ehtiyac olacağı təqdirdə PUA və hərbi aviasiya vasitələri üçün baza rolunu oynaya biləcək. Bu, ehtiyac yaranacağı təqdirdə, Azərbaycanın suverenliyinə və insanların dinc həyatına mane olacaq elementlərin dərhal neytrallaşdırılmasına imkan verəcək.

Bir sözlə, belə geniş və çoxfunksiyalı nəqliyyat sistemi qurmaq ölkənin bölgədəki geosiyasi və iqtisadi mövqelərini gücləndirməsinə, ticarət əlaqələrini genişləndirməsinə imkan verəcək, həmçinin Qarabağ və Şərqi Zəngəzurun potensialını tam şəkildə açmağa şərait yaradacaq.

# Təhsilin keyfiyyətinin yüksəldilməsi zamanın çağırışıdır

***Təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəb infrastrukturunun inkişafı istiqamətində ölkəmizdə ardıcıl olaraq tədbirlər keçirilir. Təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflərdən olan yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqla təminatı, istilik sisteminin bərpası, ümumilikdə infrastrukturun yenilənməsi ilə bağlı işlər görülüb və davam etdirilir. "Təhsil hər bir dövlətin gələcəyidir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir: "Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə, təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır".***







Azərbaycan Prezidenti ölkəyə rəhbərlik etdiyi dövr ərzində ölkəmizdə 3200-dən çox məktəb inşa edilib, əsaslı təmir olunub, yeni tədris korpusları tikilib və ya tam yenilənib. Bu kifayət qədər böyük göstəricidir. Əlbəttə ki, ümumtəhsil məktəblərinin təmir-tikinti işləri təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Həyata keçirilən tədbirlərin davamı olaraq, yeni tədris ilində ölkəmizdə məktəblər istifadəyə verilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın iştirakı ilə sentyabrın 21-də paytaxtdakı Ağ Şəhərdə Bakı Avropa Liseyi üçün inşa edilən 1560 şagird yerlik yeni binanın açılışı olub. Yeni binada istedadlı şagirdlərin intellektual və yaradıcı potensialının üzə çıxarılması və inkişafı, onların yüksək mənəvi və mədəni dəyərlərə əsaslanaraq formalaşdırılması üçün geniş imkanlar mövcuddur. İstedadlı uşaqlar üçün yaradılmış Bakı Avropa Liseyi Təhsil Nazirliyinin tabeliyində olan dövlət məktəbidir və hər il məzunlarının 100 faizi ali məktəblərə yüksək balla daxil olan liseyin yetirmələri dünyanın bir çox nüfuzlu universitetlərində təhsillərini davam etdirirlər. XXI əsrdə gənc nəslə vacib olan bacarıq və biliyin formalaşdırılmasına töhfəsini verir. Liseydə şagirdlərin həyat boyu öyrənmək və cəmiyyət üçün məhsuldar üzv olması vacib olanlar tədris edilir. Liseyin təlim mühiti yaradıcılığa və axtarışa həvəsləndirir, onların istedadını müxtəlif yollarla üzə çıxarır, nümayiş etdirir və dərsdənkənar təlim imkanlarını genişləndirir.

Liseyin özünəməxsus təhsil modeli var və mühəndis, robot, iclas, incəsənət, elm və kids zonalarına bölünən steam otaqda şagirdlər üçün müasir dövrün tələblərinə uyğun hər cür şərait yaradılıb. Görülən bütün bu işlər yüksək intellektə malik insan kapitalının yetişməsində, beynəlxalq standartlara uyğun müasir təhsil sisteminin qurulmasında mühüm rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyevin ölkə həyatının bütün sahələrinə olduğu kimi, təhsil sektoruna da göstərdiyi diqqət və qayğı nəticəsində təhsil sahəsində yeniləşmə baş verib. Təhsilin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi diqqətdə saxlanılıb. Ölkə başçısı çıxışlarının birində vurğuladığı kimi, son illər ərzində təhsildə çox mühüm layihələr reallaşdırılıb, bu sahənin tərəqqisinə böyük qayğı göstərilib. Bu, təsadüfi olmayıb.

Təhsil sahəsində aparılan islahatlar, dövlət proqramları, "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında", "Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamları təhsilin inkişafı və infrastrukturunun yenilənməsinə yönəlmişdir. Bu gün ölkəmizin hər bir yerində müasir tipli təhsil müəssisələri şagirdlərin ixtiyarına verilib. Yeni açılan məktəblərdə müasir tədris avadanlıqları ilə təchiz olunmuş sinif otaqları, laboratoriya, kompüter otağı, akt zalı, idman zalı, hərbi hazırlıq otağı və kitabxana var. Bütün bunlar şagirdlərin elmin sirlərinə dərindən yiyələnməleri üçün hərtərəfli yüksək səviyyədə şərait mövcudluğunun göstərir.

***Zümrüd BAYRAMOVA***

# "Aparılan islahatların məqsədi keyfiyyətin yüksəldilməsidir"



"Azərbaycanda məktəb tikintisi son illərdə sürətlə aparılır. Azərbaycan Prezidenti andiçmə mərasimində bu məsələyə toxunaraq demişdir ki, ümumiyyətlə, deyə bilərəm ki, son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilib". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Onun sözlərinə görə, Azərbaycanın ən ucqar kəndlərində belə şagirdlər yeni məktəblərdə təhsil alırlar: "Bu onun göstəricisidir ki, dövlət təhsilin inkişafına, onun maddi-texniki bazasının möhkəmlənməsinə böyük qayğı göstərir. Prezident İlham Əliyev bu barədə danışarkən qeyd etmişdir ki, bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanda bir dənə də olsun qəzalı vəziyyətdə məktəb qalmasın.

Son vaxtlar modul tipli məktəblərin tikintisinə də xüsusi diqqət yetirilir. Hazırda ucqar kəndlərdə bütün müasir avadanlıqla təmin edilən və tezliklə istifadəyə verilə bilən modul tipli məktəblərin tikintisi gedir.

Heydər Əliyev Fondunun bu sahədəki xidmətləri böyükdür. Fondun təşəbbüsü ilə Bakıda və regionlarda yeni məktəblər, uşaq bağçaları, uşaq evləri, internat məktəbi binaları tikilib istifadəyə verilib, əsaslı təmir və bərpa olunub, müasir avadanlıqla təchiz edilib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva yeni istifadəyə verilən məktəb və uşaq bağçalarının açılış mərasimlərində iştirak edir, kollektivlərlə görüşür, onlara milli təhsilimizin inkişafında uğurlar arzulayır".

Kamran Əsədov sözlərinə belə davam edib: "Ölkə başçısının sərəncamı ilə təsdiq edilmiş dövlət proqramları da məktəb tikintisinin genişlənməsinə əhəmiyyətli stimul vermişdir. Məktəb tikintisini regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması, Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilib. Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, əsaslı təmiri, müasir avadanlıqla, laboratoriyalarla təminatı nəticəsində iki və üçnövbəli məktəblərin sayı xeyli azalıb. Müstəqillikdən sonra aparılan islahatlar nəticəsində Azərbaycanın elə regionu yoxdur ki, orada yeni məktəb binaları tikilməsin, yaxud mövcud məktəblər təmir edilməsin.

Təhsil islahatları təkcə məktəb tikintisi ilə məhdudlaşmır. Bu məktəblərdə təhsilin keyfiyyəti də yüksəlməkdədir. Müəllim hazırlığı, kurikulumun (tədris proqramlarının) hazırlanması,yeni dərsliklərin yaradılması və digər sahələrdə də islahatlar davam edir. Yeni dərslik siyasətinin tətbiqi, bu siyasətin həyata keçirilməsi üçün müstəqil qurum olan Dərslikləri Qiymətləndirmə Şurasının yaradılması, müəllimlərin işə qəbulu qaydaları ilə bağlı tətbiq edilən yeniliklər son illər qazanılan uğurlardır".

"Bir sözlə, istər məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, istərsə də təhsilin digər sahələrində aparılan islahatların məqsədi keyfiyyəti yüksəldilməsidir. Lakin işlər bununla yekunlaşmır. Hazırda respublika üzrə cəmi 4500 məktəb var, onların çox hissəsi yenidən tikilib və bu proses davam edir".

***Ayşən Vəli***

**Möhtəşəm zəfər günümüzün başlandığı tarix də yaxınlaşır, sayılacaq günlər qalıb...**

# Bəlkə yetər..?!

"...Qarabağın Martuni bölgəsinin Maçkalaşen icması ərazisindəki Azərbaycan hərbçiləri irəliləyərək neytral zonada mövqe tutublar. Sakinlərin və icma başçısının atdığı addımlar nəticəsində hadisə yerinə gələn rus sülhməramlıları azərbaycanlılarla aparılan danışıqlardan sonra onları əvvəlki mövqelərinə geri qaytarmağı bacarıblar. Ancaq Azərbaycan hərbçiləri şərt qoyublar: Amaras məbədində separatçıların bayrağı endirilməlidir".



SİA xəbər verir ki, bunu Ermənistanın "Hraparak" nəşri yazıb. Söhbət isə Azərbaycan Respublikasının Xocavənd rayonunun Cütçü kəndi yaxınlığındakı qədim əcdadlarımız xristian albanlara məxsus olmuş Amaras məbədindən gedir. Yəni bu məbədin ermənilərə heç bir aidiyyatı olmayıb və yoxdur. Tarixi faktlardan da aşkar etmək olar ki, hələ Çar Rusiyası imperiyası dövründən həmin kəndə köçürülmüş ermənilər Amaras məbədini ələ keçirməklə onu erməniləşdiriblər və nəticədə son 30 ildə həmin abidənin üzərinə separatçı-terrorçu rejimin əski parçasını asırlar. 10 noyabr üçtərəfli razılaşmasından bəri Cütçü kəndi kimi Amaras məbədi də müvəqqəti olaraq Rusiyanın sülhməramlı kontingentinin (RSK) nəzarətinə verilib. Lakin həmin gündən bəri Azərbaycan tərəfi bir neçə dəfə adıçəkilən qədim monastırın üzərindəki ermənilərin əski parçalarını endirtməyə nail olsa da, separatçı ermənilər öz əski parçalarını yenidən məbədin üzərindən asaraq onu murdarlayıblar.

Rus generalı Yeqorovun həyasızlığı: O, separatçıların əski parçalarının yerinə Ermənistan bayrağını asmağı əmr edib (?!)

Maraqlıdır ki, Cütçü kəndinin qeyri-qanuni və separatçı "icma rəhbəri" Lernik Avanesyan isə Azərbaycan ordusu tərəfindən əski parçasının endirilməsi tələbinin irəli sürüldüyünü təsdiqləyib. O, eyni zamanda hadisə yerinə gəlmiş Yeqorov soyadlı (adı məlum deyil) rus generalının da erməni hərbçilərə üzdəniraq "bayrağı" endirməyi təklif etsə də, sonrakı təklifi, ümumiyyətlə, yersiz olub. O, separatçıların əski parçalarının yerinə Ermənistan bayrağını asmağı əmr edib (?!)



"Hələ oraya getməmişəm, bilmirəm, Azərbaycan hərbçiləri öz yerlərinə çəkiliblər, yoxsa yox. Amma rus generalın belə şeylər dediyini eşitdim"- deyə L.Avanesyan bildirib.

TƏRS BAXIŞ+ÖZƏL

RSK-nın Qarabağa dəvət olunması günündən başlayaraq orada özbaşınalıqlar, məsuliyyətsizliklər və sözün əsl mənasında, aşkar həyasızlıqlar nümayiş etdirmələri artıq Azərbaycanın ictimai rəyini haqlı olaraq qıcıqlandırmağa başladıb. General Yeqorov adlı birinin separatçıların əski parçalarınınn endirilməsi tələbindən sonra Ermənistan bayrağının qaldırılması fikirləri isə RSK-nın ümumiyyətlə, hansı vəzifələrə məsul olduqlarını ya anlamadıqlarını, ya da qəsdən belə etdiklərini nümayiş etdirməkdədir.

Yeqorov soyadlı rus generalı Bakı qarşısında həmin əməlinə görə hesabat verməlidir, ən azından isə RSK komandanlığı bu məsələni araşdırmalıdır!

Əgər həqiqətən də belədirsə (buna isə şübhə belə yoxdur!), onda Yeqorov soyadlı rus generalı Bakı qarşısında həmin əməlinə görə hesabat verməlidir, ən azından isə RSK komandanlığı bu məsələni araşdırmalıdır!

Bu insident həm də Azərbaycanın suveren ərazilərinə açıq-aşkar təhdid məramıdır və o cümlədən, üçtərəfli bəyanatın digər bəndləri ilə yanaşı, tələb edilən 4-cü bəndinin də reallaşdırılmamasının göstəricisidir. Bəs nə etməli idi adıçəkilən Yeqorov?

O, Qarabağdakı qanunsuz erməni hərbi birləşmələrinin ərazidən çıxmalarını, bu ərazilərin Azərbaycanın olduğunu bildirməli və sonrakı tədbirlərlə bağlı komandanlığı ilə məsləhətləşmələr aparmalı idi. Amma göründüyü kimi, rus generalı bunu etməyib, əksinə, dövlətimizin ərazi bütövlüyünə qarşı həyasız davranışını nümayiş etdirib.

Sonuncu sual isə budur: bəlkə yetər? Bəlkə bəsdir? Bəlkə bu alçaq və şərəfsiz erməni quldurlarının birdəfəlik torpaqlarımızdan rədd edilmələri üçün antiterror əməliyyatlarının başlanılması üçün zaman yetişib? Və bəlkə rusların özbaşınalıqları və həyasızlıqlarının qarşısının alınması üçün qəti qərar verilməli və yekun addım atılmalıdır..?!

***Rövşən RƏSULOV***

***P.S.** Yeri gəlmişkən, möhtəşəm zəfər günümüzün başlandığı tarix də yaxınlaşır, sayılacaq günlər qalıb...*

---

# AÇIQLAMA: Müxalifətdə "yarpaq tökümü" başladı

"Radikal müxalifətin son açıqlamalarının məqsədi Qərbin diqqətini çəkməkdir. AXCP sədri Əli Kərimli gənclərə müraciət edərək, partiyadan getmək istəyənlərə istefa vermələrini təklif edib. Deyib ki, "mən sizi irəli apara bilməyəcəyəm". Bu açıqlamadan əvvəl və sonra isə AXCP və Müsavatdan istefa verənlərin sayı artıb. "Radikal düşərgədə" nə baş verir?

Media eksperti Müşfiq Ələsgərli SİA-ya açıqlamasında bildirib ki, həm Əli Kərimlinin açıqlaması, həm də radikal düşərgədən istefa verib gedənlərin məqsədi Qərb dairələrinin diqqətini çəkməyə yönəlib: "Son vaxtlar qərb dairələrinin Azərbaycana qarşı təzyiqləri yenidən artıb. Onlar 2-ci Qarabağ savaşında Azərbaycanın qazandığı tarixi qələbəni həzm edə bilmirlər. Həmçinin, Azərbaycan, Türkiyə, Pakistan ittifaqına qarşı aqressivdirlər. Bütün bunlara görə, Azərbaycandan qisas almaq istəyirlər. Qələbənin birinci ildönümü ərəfəsində Azərbaycanın dövlət siyasəti, ölkədə mövcud durum və hakimiyyətdə təmsil olunmuş müxtəlif yüksək vəzifəli şəxslərə qarşı ünvanlı qarayaxma kampaniyasına başlamaq niyyətindədirlər. Amma Qərb dairələri bu dəfə öz çirkin kampaniyalarını aparmaq üçün təkcə radikal müxalifətdən istifadə etmirlər, fərqli qüvvələrdən də faydalanırlar. Çünki ənənəvi müxalifət qərəzli mərkəzlərdən gələn sifarişləri yerinə yetirə bilmir, gücsüzdür, cəmiyyət arasında bağları yoxdur. Müxalifət tərkibində olan gənclər bunu görürlər, ənənəvi partiyaları tərk edib gedirlər, yeni təşkilatlar formalaşdırırlar. Onlar Qərbə mesaj verirlər ki, yeni proqramda nəzərə alınsınlar. AXCP və Müsavatda diqqət çəkən hərəkətlilik, Əli Kərimlinin açıqlamaları da bununla bağlıdır. Özlərini yada salırlar. Qərbə göstərmək istəyirlər ki, imkansızlıqdan gəncləri ətraflarında saxlaya bilmirlər, yeniləşə bilmirlər. İndi aktivləşmək üçün Qərbdən imdad diləyirlər, dəstək gözləyirlər".



Yeri gəlmişkən deyək ki, Qərbin müəyyən dairələrinin və onların təsiri altında olan müxalifət partiyalarının, media və QHT-lərin Azərbaycan hökumətinə qarşı təşkilatlanmış hücumları əvvəlki illərdə də müşahidə olunub. Hər dəfə Azərbaycanla bağlı mühüm məsələlər gündəlikdə duranda və ya Azərbaycanda beynəlxalq ictimaiyyətin diqqətini cəlb edəcək tədbirlər keçiriləndə (Eurovision 2012, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, mühüm enerji və iqtisadi layihələr, beynəlxalq siyasi, iqtisadi, mədəni tədbirlər) bu tipli hücumlar və qarayaxma kampaniyaları təşkil olunur. Qərb dairələri bununla beynəlxalq ictimaiyyətin diqqətini keçirilən tədbirlərdən yayındırmaq, əsassız və qərəzli şəkildə Azərbaycanı hədəfə gətirmək, Ermənistan-Azərbaycan münaqişəsinin həllində Azərbaycana əlavə problemlər yaratmaq məqsədi güdürlər. Amma heç vaxt məqsədlərinə nail olmayıblar. Çünki Azərbaycan cəmiyyəti Qərbin sifarişi ilə hərəkət edənlərin deyil, öz dövlətinin, öz hakimiyyətinin yanındadır.

***Gülyana***

---

# Prokuror AXCP sədrinin mühafizəçisinə cəza istəyib - MƏHKƏMƏ

***Bakı Ağır Cinayətlər Məhkəməsində terrorçuluğu maliyyələşdirmədə təqsirləndirilən Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədrinin mühafizəçisi Niyamməddin Əhmədovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib. SİA xəbər verir ki, hakim Siyavuş Hacıyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqı başa çatıb.***



Prokuror çıxışında N.Əhmədovun 15 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Məhkəmənin növbəti iclası sentyabrın 29-na təyin edilib.

Qeyd edək ki, aparılan istintaqla həmin materialları internet resurslarında yaymaqla nəzərdə tutulan cinayətlərin hazırlanması və törədilməsində istifadə edilməsi məqsədi ilə dövlətə və hakimiyyətə qarşı cinayət əməllərində dəstəklənməsinə etibar etdiyi şəxslərə, o cümlədən yaxından tanıdığı həmyerlisi Əhmədov Niyaməddin Arif oğluna müxtəlif üsullarla göndərdiyi pul vəsaitlərini verməsinə, sonuncunun isə öz növbəsində terrorçuluğun maliyyələşdirilməsində istifadə olunacağını bilib həmin pul vəsaitlərini qəbul edərək uydurma ünvanlar adı altında qəsdən toplamaqla terrorçuluğun maliyyələşdirilməsi cinayətini törətməsinə əsaslı şübhələr müəyyən edilib. Lakin Qabil Məmmədovun çıxışlarında bəyan etdiyi terrorçuluğun törədilməsinə yönələn cinayət əməlləri iradəsindən asılı olmayan səbəblərdən başa çatdırılmayıb.

Göstərilənlərlə əlaqədar hazırda barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilməklə axtarışda olan Qabil Məmmədova Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan olunmaqla onun Azərbaycan Respublikasına ekstradisiyası üzrə müvafiq hüquqi prosedurlar həyata keçirilir. N.Əhmədov isə Cinayət Məcəlləsinin 214-1-ci (Terrorçuluğu maliyyələşdirmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

N.Əhmədova Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 28,281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlara etməyə hazırlıq) və 233-1.2.1-ci (qanunla mülki dövriyyədə olmasına yol verilməyən əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satma) maddələri ilə ittiham elan olunmaqla, barəsində həbs qətimkan tədbiri seçilib.

# Ermənistan: 30 ilin son dərsi və İran

***44 günlük müharibədə ağır məğlubiyyətə uğrayan Ermənistanda bütün sferalar - həm dövlət, həm də qeyri dövlət strukturları çöküb. Yüksəliş, inkişaf haqqında deyilənlər isə yalnız kağız üzərindədir. Hakimiyyət nokautdan ayılmayıb, üstəlik erməni cəmiyyətini də şoka salmaqda davam edir. Hətta Azərbaycan ərazilərində "Ermənistan" adlı qondarma dövlət yaradanlar da Azərbaycanın ildırım sürətli gedişindən özlərini itiriblər, ermənilərə heç bir təskinlik verə, onları düşdükləri quyudan çıxacaqları yolu göstərə bilmirlər.***

Ara-sıra ”eks”lər hakimiyyəti ittiham etmək şərtilə milləti sakitləşdirməyə, baş verənlərin keçici olduğunu inandırmağa çalışırlar. Qarabağ klanının ən fəal üzvlərindən biri, Ermənistanda hakimiyyəti ələ keçirənlər arasında ”üçüncü”lüyü qoruyan Serj Sarkisyan əvvəlcə revanşdan, əvəzçıxmadan ağızdolusu danışsa da seçkilərdən sonra havası alınmış kimi görünür. ”Qarşıda çətin, şərəfli mübarizə gözlənilir”, deyən Serj Sarkisyan hakimiyyəti yenidən ələ keçirəcəyi ümidini itirmədiyini addımbaşı büruzə verir.

Serjikin mesajında həmçinin qeyd olunur: ”Otuz il əvvəl Üçüncü Respublikanın əsasını qoyan nəsil erməni xalqının gələcək nəsilləri qarşısında məsuliyyətini yaxşı dərk edirdi. Bu nəsil azad və müstəqil bir erməni dövləti qurmaq və müdafiə etmək üçün hər şeyi etdi. Müstəqillik nəslinin bəzi nümayəndələri vətən uğrunda qurban getdilər (yəni gorbagor oldular) və bu gün onlardan geridə qalanların bir qismi anti-milli hakimiyyət tərəfindən təqib olunur. Erməni xalqının taleyinə biganə qalan hazırkı rejim və onların tərəfdarları, təsvir edilə bilməyəcək çətinliklər hesabına əldə edilən nailiyyətləri qısa müddətdə puç etdilər. Ermənistanı və ”Artsax”ı ciddi zərbə altında qoydular, milli dövlətin qorunması üçün vacib olan komponentlərə qarşı iyrənc bir kampaniya başladılar. Ermənistan vətəndaşlarını düşməndən və mövcud rejimdən təhqirlərə məruz qoyaraq könüllü olaraq düşməni müstəqil dövlətin sərhədlərinə buraxdılar. Ermənistanın suverenliyi və dövlət təhlükəsizliyi pozuldu. Minlərlə gənc həyatının qurban verilməsi və ya şikəst olması ilə nəticələnən 44 günlük müharibədə bacarıqsız idarəetmə nəticəsində və düşmənlə şübhəli ”yaxınlaşma” nəticəsində dövlətin varlığı təhlükəyə atıldı. Bunun fonunda indiki rejim utanmadan ”rəngarəng” bayram keçirir”.

Bəli, bu fikirlər Azərbaycan xalqına xəyanət etmiş Qarabağ ermənisinin, minlərlə azərbaycanlını öz isti ocağından, ata-baba torpağından zorla qovan erməni separatçılarının başında duran, Xocalıda bəşəriyyətin ən qanlı soyqırımını törədən və sonradan xristian qardaşlarının demokratik ölkə adlandırdıqları Ermənistanın prezidenti olmuş və nəhayət tipik erməni terrorçusuna, qulduruna aiddir. Uzun illər bu xəyanətə, qətliama, separatçılığa hazırlaşan ermənilərin o zamankı nəsli ”miatsum” adı altında Azərbaycandan bir tikə qoparmaq həvəsinə düşdülər. Və bunu cəmi 30 illiyə əldə saxlamağı bacardılar. Yadınızdadırsa, Sarkisyan hakimiyyətinin son illərində Qafan şəhərində bölgənin gəncləri ilə bir araya gəlmişdi. 25-30 il beynəlxalq təşkilatların susqunluğundan ilham alan, işğalçılığa geydirdiyi ”azadlıq” donuna dünya birliyi tərəfindən heç bir təzyiqin olmayacağını yəqin etdiyindən ruhlanan bu gəda: ”Biz Qarabağı aldıq, sizin nəsil isə ”Ararat”a (Türkiyə ərazisindəki Ağrı dağı - müəllif) sahib çıxmalıdır”, ifratçılığına vararaq əslində bütün erməniləri ifşa etmişdi.





Ermənistanın ikinci prezidenti, ”titul”larının sayına görə Sarkisyandan geri qalmayan Koçaryan da təxminən eyni sözləri və eyni fikirləri irəli sürmüşdü. Ermənilərin birinci prezident isə xələflərindən fərqli olaraq hadisələrə obyektiv yanaşmağın tərəfdarı olsa da ona düşündüklərini reallaşdırmağa imkan vermədilər.

Bu günün reallığı isə başqadır. Azərbaycan 44 günlük müharibədə heç kimin ağlına gətirmədiyi uğura imza atıb. 30 il dağlı-aranlı Qarabağı işğal altında saxlayan, bu azmış kimi ara-sıra bizi Bakıya qədər qovacaqları ilə hədələyən ermənilər sonda özlərinin cızdığı qondarma sərhədlərdən də məhrum oldular.

Bugünkü ermənilər hələ də 30 illik işğalın eyforiyasındadırlar. Çox az qismi həqiqəti qavraya bilir, əksəriyyət nə beynəlxalq qanunları, nə dünya ölkələri tərəfindən təsdiqlənən sərhədləri, nə kitabı, nə də sənədləri tanıyır. Gah Romadakı daş üzərində çəkilən cızmaqaraya, gah da ABŞ-ın 28-ci prezidenti (1913-21-ci illər) olmuş Vudro Vilsonun kağız üzərində qalan (Konqres tərəfindən rədd edilib) tezislərinə söykənərək sərhədlərin təyin edilməsinə çalışırlar. Amma unudurlar ki, onların istinad etdikləri sənədlər heç vaxt olmayıb və bu gün də mövcud deyil. Ermənilərin saxta tarixinə qarşılıq masaya 5-6 imperiyaya sahib Azərbaycan dövlətinin şanlı tarixini qoymaq olar - Böyük Səlcuqlular, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər, Afşarlar, Qacarlar. Nə olsun ki, tarixin müəyyən dönəmində xanlıqlara parçalanıb, amma Azərbaycan olaraq bu gün var və bundan sonra da olacaq. Hələlik o tayda da bir Azərbaycan var. Amma...

Müharibədən məğlub çıxan Ermənistan məkrli niyyətlərini hələ də sürdürməkdədir. Bu dəfə qanı, canı, dini-imanı bir qardaşlarımızla bizi üz-üzə qoymaq niyyəti ortadadır. Ermənistanda dəqiq bilirlər ki, ölkəni düşdüyü ağır durumdan Qərbin sanksiyaları, təhdidləri altında qalan İran xilas edə bilməyəcək. Bəs onda İrəvan niyə Tehrandan ”pirim” deyib yapışıb? Belə bir deyim var, dostumun düşməni, mənim düşmənimdir. Düşmənimin düşməni mənim dostumdur. İranla ABŞ-ın düşmənçiliyi 42 ildir ki sürür, Ermənistan da Amerika ilə dostdur. Deməli İran Ermənistanın dostunun düşmənidir. ”Dostumun düşməni mənim düşmənimdir” nəzəriyyəsinə görə, İranla Ermənistan düşmən olmalıdırlar. Ortada isə fərqli mənzərədir. İran düşməninin dostu ilə düşmən olmaq əvəzinə, onunla dostluq edir, ona süni nəfəs verir. Eyni zamanda Azərbaycanın timsalında din, dil, məzhəb qardaşlarına qarşı çıxır, əzələ nümayiş etdirmək istəyir.

Proletariatın atası Lenin yazırdı ki, Ukraynadakı ”velikoderjava” şovonisti, Rusiya ”velikoderjava” şovonistindən daha qorxulu və təhlükəlidir. Bu fikri bilirsiniz niyə yazıram, Leninə sevgimdən yox, Ərdəbil imamının farsdan çox fars olmaq iddiasından qorxduğum üçün. Ərdəbil Şərqi Azərbaycan ostanlığının paytaxtıdır. Bu şəhərin imamı düşündüyünüz adi ”molla” deyil əslində. Bizim ölçü vahidimizlə götürüləndə akademikə bərabər birisidir. Onun oxuduğu xütbələr o vaxt Leninin yazdığı tezislərindən daha kəsərlidir, desək yanılmarıq. Bu şəxs İranın tarixini bildiyi kimi, üzərində gəzdiyi torpağın keçmişini, mənsub olduğu xalqın kimliyini də bilmək zorundadır, çünki sadə bir iranlı deyil. O yəqin bilməmiş deyil ki, Arazın o tayında da, bu tayında da Azərbaycan türkləri yaşayır, amma fərqli ölkələrdə. Nəqliyyat vasitələrinin hərəkəti də beynəlxalq qanunlara, o cümlədən iki ölkə arasında imzalanmış momerandumlara əsasən tənzimlənir. Ərdəbil mollası onu da bilir ki, İran ərazisinə daxil olan Azərbaycan maşınlarından müxtəlif ölçülü rüsumlar alınır. Bəs xeyir ola, İran maşınları, xüsusən də erməni separatçılarına qida, yanacaq, silah daşıyan nəqliyyat vasitələri niyə Azərbaycan ərazisinə daxil olanda yoxlanmamalı, rüsum alınmamalıdır? Əzələ nümayişinə qalxmazdan əvvəl Ərdəbil mollası Seyid Amini Həsəni iki ölkə arasında imzlanmış sənədlərə diqqət etsə dünya dağılmaz ki.

Bəs onda İran rəsmilərinin arasıra sərgilədikləri təhdidlərin arxasında nə dayanır? Eyni soy-kökdən olan, eyni dildə danışan, eyni dinə-məzhəbə qulluq edən cənublu qardaşlarımızı narahat edən nədir ki, düşmənə yardım etmək qədər xəyanətə qol qoysun? Təbii ki, bu sualın cavabını qismən də olsa bilirik, amma bildiklərimizin bir-ikisini yazmaqla Ermənistana cənublu qardaşlarımızın əli ilə yük göndərənlərin niyyətini üzə çıxara bilərik. Əvvəla qeyd edək ki, məsələnin kökündə sırf iqtisadi maraqlar dayanır. Hadisələrin gedişatı göstərir ki, Zəngəzur dəhlizinin açılması Naxçıvana daşınan yüklərin İrandan keçməsinə son qoyacaq. Bu da İranın ildə milyonlarla dollar gəlirdən məhrum olması deməkdir.

İkincisi, Ermənistan Türkiyə və Azərbaycanla iqtisadi əlaqələr qurmaqla İran bazarına güclü alternativlər yaranacaq ki, bu da böyük itkilər deməkdir. Bir sözlə, rəsmi Tehran hələlik Ermənistandan bir alət kimi istifadə etməyi düşünür. Digər niyyətlər isə zamana bağlıdır.

***V.VƏLİYEV***

# Osmanqızı bu dəfə əlikramlıq edir

## XƏYANƏTİN ÖZÜ!

### Düşmən dəyirmanına su tökən separatçını daşlamağın zamanıdır!




ABŞ-da bu ölkənin məlum orqanları qarşısındakı xüsusi xidmətlərinə görə 262 min dollarlıq təmtəraqlı mənzillə mükafatlandırılan Sevinc Osmanqızından hazırkı vaxta qədər çoxsaylı və müxtəlif cür xəyanətkarlıqlar. Hətta bu xəyanətkarlıqların sayı o qədər çoxdur ki, onları saysaq bir neçə gün vaxt lazım olar. Ancaq onlardan bəzilərini bir daha xatırlatmağın ziyanı yoxdur:

*Vaxtilə MKİ-nin əməkdaşlığı ilə "eşq macəraları" yaşayan Sevinc Osmanqızı Azərbaycanın maraqlarını ona sataraq yaxşıca pul qazanmışdı.

*Osmanqızı Paşinyanın hüquq müdafiəçiliyini, Ermənistanın vəkilliyini edib, azərbaycanlıları "xuliqan, bandit" və "vətənşivən" adlandıran ünsürdür.

* Bu ünsür, eyni zamanda, bu gün də düşmənə göz dağı verən Hərbi Qənimətlər Parkına görə Azərbaycan xalqını təhqir edib.

*Osmanqızı bir neçə gün öncə deyib ki, Bayden "demokratiya sammiti"nə Azərbaycanı deyil, Ermənistanı dəvət etməlidir.

Beləliklə, bu cür düşmən mövqeyində olan biri indi bütün bunlar azmış kimi hazırda separatçılıq toxumlarını da səpməyə başlayıb. Özü də zamanında çörəyini yediyi, suyunu işdiyi Azərbaycana qarşı. Bu mənada, bəri başdan ölkəmizin çörəyinin və suyunun ona haram olmasını da qeyd edə bilərik.

Nə isə, mövzudan yayınmayaraq keçək əsas mətləbə və Sevinc (təəssüf ki!) Osmanqızının ölkəmiz üçün həssas bir dönəmlərdə etnik qarşıdurma yaratmaq cəhdləri bilavasitə düşmən dəyirmanına su tökür, habelə Azərbaycan dövlətinə qarşı qeyri-səmimi davranışlar nümayiş etdirən bəzi siyasi dairələrin ittiham vasitələrinə şərait yaradır!

Bu düşmən ünsürü, əslində, özünün də yalan danışdığını, mümkün olmayan bir məsələni "mümkün" kimi göstərdiyini çox gözəl bilir

Qeyd edək ki, artıq Azərbaycan dövlətinə və xalqına, dövlətçilik maraqlarına açıq-aşkar düşmənçilik göstərən Sevinc Osmanqızı sosial şəbəkə vasitəsi ilə çıxdığı "Osmanqızı TV"dəki canlı yayımda sual edib ki, "nə üçün Azərbaycan parlamentində bir nəfər də olsun talış xalqının nümayəndəsi yoxdur" (???!!!) Və ya "niyə talış dilində qəzet, məktəb olmamalıdır" (???!!!)

Maraqlısı da budur ki, bu düşmən ünsürü, əslində, özünün də yalan danışdığını, mümkün olmayan bir məsələni "mümkün" kimi göstərdiyini çox gözəl bilir. Sadəcə, ona bu haqda pullu tapşırıq verilib.

Onun sözügedən iddialarını eşidən minlərlə talış xalqının nümayəndələri qarşısına çıxarsa, ən yaxşı halda üzünə tüpürərlər!

Halbuki qəhrəman və əziz talış xalqının nümayəndələri parlamentdə də, dövlət idarəçiliyində də iştirak edir, öz dillərində qəzetlərini çıxarırlar. Bu gün istər Şəhidlər Xiyabanında, istərsə də Cənub bölgələrimizdə yüzlərlə talış xalqının Vətənləri Azərbaycan üçün canlarını fəda etmiş, şəhidlik zirvəsinə ucalmış oğulları uyumaqdadı və hər kəs onların ailələrinin, valideynlərinin, övladlarının qarşısında baş əyir! Yəni fakt budur ki, əgər Sevinc Osmanqızı bu xüsusda "qazan qaynadacağını" düşünübsə kökündən yanılıb və istisna etmək olmaz ki, onun sözügedən iddialarını eşidən minlərlə talış xalqının nümayəndələri qarşısına çıxarsa, ən yaxşı halda üzünə tüpürərlər!

Osmanqızı bu dəfə rəzil, satqın, düşmən mövqeyini ortaya qoymaqla Amili kimilərdən fərqli olmadığını isbatlamırmı?

Amma məsələnin digər tərəfi də var və o da sual yaradır: nə üçün Sevinc Osmanqızı məhz indiki məqamda separatizmlə məşğuldur? Cəlil Məmmədquluzadənin yaradıcılığında qırmızı xətlə keçən nadan, cahil mollaların ümumiləşmiş obrazı olan Seyid Həsən Amili kimi müasir dövrümüzün Əlikramı olan Sevinc Osmanqızı separatçı fikirlər səsləndirməklə kimə və nə üçün, hansı məqsədlərlə nökərçilik göstərir? Ermənilərin vəkilliyini edən Osmanqızı bu dəfə rəzil, satqın, düşmən mövqeyini ortaya qoymaqla Amili kimilərdən fərqli olmadığını isbatlamırmı? 44 günlük Vətən müharibəsindəki Zəfərə görə Azərbaycana hər tərəfdən hücum, təzyiq edənlərin əlinə oynayan bir siyasi çatlaq necə azərbaycanlı adını daşıya bilər? Yəni aşkar düşmənçilik edən, ermənilərə və ümumiyyətlə, Azərbaycana qarşı çıxan dairələrə nökərçilik edən Meydan TV-dən sonra Osmanqızının da separatçılığı təbliğ etməsi onun kimliyini və hansı dairələrə xidmət etməsi barədə aydın təsəvvür yaratmırmı? Artıq şeytanı daşlamağın zamanıdır. Həm içimizdəki, həm də çöldəki. Hələ ki, gec deyil, hətta tam zamanıdır.

**Rövşən RƏSULOV**

# "Minlərlə uşağı, gənci, qadını, qızı zəhərləyən..."

## TƏNQİDÇİ EKSPERT REAKSİYA VERDİ

*"Bütün dünyada olduğu kimi Azərbaycanda da son illər həm təbii yolla əkib-becərilən narkotik bitkiləri, istehsalı və ondan istifadə, həm də süni sürətdə sintetik uyuşturucu maddələr, o cümlədən həb və dərman formasında narkotik tərkibli maddələrin istifadəsi, yayımı, satışı və onlarla bağlı şəbəkələrin sayı get-gedə artır.*



Azərbaycan cəmiyyəti dünyanın bir hissəsidir. Sözsüz ki, bizdə də bu hallar baş verir". Bu sözləri SİA-ya açıqlamasında tənqidçi ekspert, kulturoloq Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, sərhədimizdə olan ölkələrə baxdıqda istər Ermənistan və 30 il işğal altında saxladığı Qarabağda əkilən narkotik maddələr, daha sonra patı kimi bir çox sintetik narkotik maddələrin istehsalının təşkil edilməsi və hansısa yollarla qanı qarışıq adamlar vasitəsilə Azərbaycana daşınıb, yayımının təşkil edilməsi, gəncləri, yeniyetmələr, xüsusilə qadın və qızlarımızı bu tora salıb həmin sintetik, narkotik zəhərləyici maddələrlə zəhərləyib onların gələcəyini məhv etmək faktları haqqında artıq mətbuatda çox materiallar gedib: "Eyni zamanda həm cənub, həm şimal sərhədimiz nə qədər qorunsa da, Xəzər dənizi vasitəsilə Türkmənistan, Qazaxıstan və Əfqanıstandan gələn çətənə tipli narkotik vasitələrin də Azərbaycana daşınması və Azərbaycan vasitəsilə müxtəlif ölkələrə daşınması faktoru ilə bağlı cinayət halları artıb. Azərbaycanın hüquq-mühafizə orqanları və Azərbaycan cəmiyyəti bununla bağlı çox sərt həm maarifləndirici formada, həm də antitəbliğat formasında, həm də cinayət məsuliyyətinə cəlb etməklə bu sistemi qurmuş, şəbəkə yaratmış qrupları ifşa etməklə, onları cinayət məsuliyyətinə cəlb etməklə narkotikanın qarşısı alınmağa çalışılır".

Aydın Xan Əbilov fikirlərinə davam edərək həmçinin qeyd edib ki, bir çox Avropa ölkələrində narkotik istifadəsinə icazə var: "Bu guya cinayət hallarının qarşısını alır. Qeyri-qanuni yollarla narkotik maddələrinin yayılmasının qarşısı alınır. Amma nəzərə alaq ki, Avropa ölkələri intellektual baxımından, təhsil baxımından, səviyyə baxımından Şərq ölkələrindən dəfələrlə yuxarı olduğuna görə, oturuşmuş cəmiyyət olduğuna görə onlarda narkotik maddələrin istifadəsinə icazə var. Amma Azərbaycan kimi həssas cəmiyyətə malik ölkələrdə buna ehtiyac yoxdur.

Gündən-günə istər ənənəvi narkotika ilə bağlı, istərsə də süni sintetik narkotik maddələrin yayılmasına qarşı Azərbaycanda ciddi tədbirlər görülür. Əgər əvvəl qram və ya kiloqramla tutulan, müsadirə edilən və onların satışını, yayımını təşkil edən şəxslər cinayət məsuliyyətinə cəlb edilirdisə, indi artıq minimal 100 kiloqramdan tonlarla narkotik maddə, çətənə və digər narkotik mənşəli bitkilərin müsadirə edilməsi faktları haqqında telekanallar və sosial şəbəkələr xəbərlər verir. Bütün bunlar təbii ki, ürəkağrıdan məsələlərdir. Çünki narkotik maddələr, xüsusilə də sintetik narkotik maddələrin qiyməti ucuz olduğuna görə, bu gün uşaqlarımızı, yeniyetmələrimizi, gənclərimizi məhv edir. Xüsusilə də gənc, tələbə qızlar arıqlamaq adı altında istifadə edənlərin bütün həyatı sual altındadır. Bununla bağlı dəfələrlə aparılan həm profilaktik tədbirlər, həm maarifləndirici tədbirlərin effektivliyinin şahidi olmuruq. Düşünürəm ki, narkotika və süni narkotikanın məktəblərdə, gənclər və yeniyetmələr arasından yayılmasını təşkil edən şəbəkənin adi satış insanlarını yox, məhz şəbəkənin ən böyük rəhbərliyində olan şəxsin həmin dəqiqə tutmaq və cinayət məsuliyyətinə cəlb etməklə ömürlük həbslə cəzalandırmaq lazımdır. Çünki minlərlə uşağı, gənci, qadını, qızı zəhərləyən, millətin genefondunu məhv edən bu insanlar əlbəttə ki, ölüm hökmünə və ya ömürlük həbslə cəzalandırmaq lazımdır. Bu şəxslər varlanmaq üçün dövlətin əsas dayağı olan cəmiyyəti məhv etməklə dövləti sarsıdırlar. Onlar ermənilərdən də pisdir. Ona görə də bu kimi insanlarla bağlı çox sərt cəzalandırma sistemi olmalıdır".

**Arzu Qurbanzadə**

# "Nar" Tərtər və Füzuli məktəbinin birincilərini məktəb ləvazimatları ilə təmin edib






22 sentyabr ilk dərs günündə "Nar" Vətən müharibəsi dövründə ermənilərin atdığı mərmilər nəticəsində zərər dəymiş məktəblərə dəstək olub. Mobil operator Füzuli rayonunun Aşağı Alxanlı, Aşağı Kürdmahmudlu, eləcə də Tərtər rayonunun Qapanlı və Soyulan kəndlərində yerləşən məktəblərin birinci sinfinə gedən şagirdlərini məktəb ləvazimatları ilə təmin edib. Bura 70-dən artıq məktəblinin tədris ili dövründə istifadə edəcəkləri məktəbli çantası, dəftər, rəngli karandaşlar və digər dəftərxana ləvazimatları daxildir.

"Nar" nümayəndələri məktəblilərlə görüşüb, hədiyyələri təqdim edib və onlara yeni tədris ilində uğurlar arzulayıblar. Görüşdə bildirilib ki, mobil operatorun əsas məqsədi müharibədən zərər çəkmiş təhsil ocaqlarına dəstək olmaqdır.

Azərbaycanda təhsilə, uşaq və yeniyetmələrin inkişafına hər zaman dəstək olan "Nar" məktəbləri kitabla və məktəb ləvazimatları ilə təmin etməyi artıq bir ənənə halına çevirib. Mobil operator uşaqlarda kitab oxumaq vərdişinin formalaşmasına dəstək olmaq və təhsilin önəmini aşılamaq məqsədilə uğurlu layihələr icra edib.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 91%-ni əhatə edir və 8780-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib.

# Salam dogma məktəb, ey ana məktəb - REPORTAJ + FOTOLAR

***Dünən Azərbaycanda 2021-22-ci tədris ilinin açılışı oldu. Məktəblərin qarşısı şagirdlər və valideynlərlə doldu. Son 2 ildə pandemiya səbəbindən fəaliyyəti dayandırılmış məktəblər şagirdlər üçün, onlayn dərslərdən sıxılmış şagirdlər isə öz məktəbləri, öz müəllimləri, sinif yoldaşları üçün darıxmışdılar. Doğma məktəbləri onları yenidən öz qoynuna aldı və dərs ilinə start verildi.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

Ən çox sevinənlər isə 1-ci sinifə gedənlər idi. Gözəl məktəb çantaları, məktəbli geyimləri, gül-çiçəklə və şarlarla "silahlanmış" 1-cilərin üzlərindən sevinc tökülürdü. Həyatlarında ilk dəfə fərqli və maraqlı dünyaya qədəm basan bu balacaları müəllimlər qarşıladı və valideynlərdən təhvil aldı. Onlar 11 il burada 2-ci evləri kimi yaşayacaqlar, təlim-tərbiyə alacaqlar və vətənimizə layiqli övladlar kimi yetişəcəklər.

162 nömrəli məktəbin qarşısı şagirdlər və valideynlərlə dolub daşırdı. Bizim də qızımız Elana onların arasında idi. dünən onu ilk dərsinə apardıq. İlk övladımız Altay 8 ildir bu məktəbdə təhsil-tərbiyə aldığından bu təhsil müəssisəsindəki vəziyyəti bilirik, bu səbəbdən digər uşağı da oraya qoymaq qərarına gəldik. Bu gün onun həyatında ən sevincli günü idi...

1-cilər üçün məktəbin həyətində gözəl qarşılanma mərasimi təşkil edilmişdi. Məktəb mövzusunda şən uşaq mahnıları, şeirlər səsləndirildi. Ali Baş Komandanımızın "Qarabağ Azərbaycandır" şüarı ilə dövlət himnimizin səsləndirilməsini balacalar alqışlarla qarşıladılar.





İlk dəfə məktəbə gələn uşaqlar ətrafa heyrətlə baxır, hər şey onlara qəribə görünürdü. Onların birindən soruşanda ki, məktəbə nə üçün gəlir, cavab verdi ki, burada oxuyub gələcəkdə həkim olacaq, xəstələri sağaldacaq. Çantasını qucaqlayıb səbirsizliklə içəri buraxılmasını gözləyirdi. Digər 1-cilər də eyni həvəslə məktəb binasına daxil olmağı gözləyirdilər.



Nəhayət, 1-ci sinif şagirdləri cərgələrə düzüldü, qruplara bölündü, müəllimələri ilə tanış edildi və öz siniflərinə yola salındı. Söhbətləşdiyimiz müəllimlər məktəblərin açılmasını böyük sevinclə qarşıladıqlarını bildirdilər.



Məktəbin ibtidai sinif müəlliməsi Esmira Yevgeyevna pandemiya səbəbindən məktəblərin bağlı qalmasının və dərslərin onlayn qaydada keçirilməsinin şagirdlər və müəlimlər üçün çətinliklər yaratdığını dedi və əlavə etdi ki, müəllimlər şagirdlərin geri qalmaması üçün onlayn dərslər vasitəsləi əllərindən gələni ediblər. İndi isə ənənəvi dərslərlə çatışmazlıqları qısa müddətdə aradan qaldıracaqlarını deyən müəllimə əlavə etdi ki, xüsusilə 1-ci siniflər üçün dərslər daha maraqlı keçiriləcək.



Məktəbin rus dili müəlliməsi Təzəgül Əliyeva isə deyir ki, məktəbsiz keçən müddətdə onlayn dərslərlə şagirdlərə tədris proqramını mənimsətmək üçün əllərindən gələni ediblər. İndi həmin dövrdə yaranmış hansısa çatışmazlıqları qısa müddətdə kompensasiya edəcəklər. Müəllimənin sözlərinə görə, məktəbsiz qalan dövrdən sonra şagirdlərin məktəb üçün darıxdığı üzlərindən hiss olunur və onlar bundan sonra daha həvəslə oxuyacaqlar.

Qeyd edək ki, 162 nömrəli orta məktəb Bakının ən qədim və ən yaxşı məktəblərindən biridir. 104 il qabaq açılmış məktəbdə hazırda təxminən 1700 şagird Azərbaycan və rus bölmələrində təhsil alır. Pedaqoji heyəti 100 nəfərdən ibarət olan məktəb 5 günlük və 2 növbəli iş rejimində işləyir.



Bu məktəbin məzunları ali məktəblərə imtahanlarda hər il böyük nailiyyətlər əldə edirlər. Məktəbin şagirdləri isə mütamadi olaraq beynəlxalq olimpiadalarda, müxtəlif bilik və idman yarışlarında qalib olub medallar qazanırlar. 1-ci Qarabağ müharibəsi qəhrəmanı, şəhid Etibar Allahverdi oğlu Əliyevin adını daşıyan bu təhsil ocağı Bakıda məzunları Vətən Müharibəsində ən çox şəhid vermiş məktəbdir. Məktəbin həyətində onlara xüsusi güşə düzəldilib və iri fotoları vurulub, haqqında məlumatlar qeyd olunub.

Təxminən 2 il əvvəl məktəbə yeni direktor Arzu Nəzərova təyin olunub. Onun fəaliyyəti nəticəsində məktəbdə nizam-intizam xeyli yaxşılaşıb, dərslərin keyfiyyəti artıb, rüşvət halları aradan qaldırılıb. Bu da öz nəticəsini göstərir. Təsadüfi deyil ki, məktəbdən nisbətən uzaq ərazilərdə yaşayanlar arasında övladlarını bu məktəbə qoymağa çalışanların sayı artır.

Söhbətləşdiyimiz valideyn Mehman Qarayev də onlardandır. Dediyinə görə, buradan uzaqda yaşasa da, məktəbin yaxınlığında yaşayan bacısının məsləhəti ilə ilk övladını buraya qoyub, keçən 3 ildə məktəbdən çox razı qaldığından 2-ci övladını da buraya gətirib. Məktəb rəhbərliyinə və müəllimlərə yaradılan şəraitə və fədakarlığa görə təşəkkürünü bildirən valideyn uşağının təhsilindən və tərbiyəsindən tam razı qaldığını deyir.

Burada olarkən diqqətimizi bir məqam cəlb etdi. Məktəbin həyəti çox kiçik olduğundan valideynlər və digər şagirdlər həyətə buraxılmadı, yalnız 1-ci sinifə gedənlər içəri buraxıldı. Həyətin kiçik olmasının əsas səbəbi qonşuluqdakı bitişik evlərin həyətin yarısını tutmasıdır. Ya bu məktəb tikiləndə az yer olub, ya da sonradan qaçqın və ya köçkünlər orada ev tikiblər. Bu səbəbdən məktəbin həyəti çox kiçikdir və orada açıq havada kütləvi tədbirlərin keçirilməsi mümkün olmur. Eyni vəziyyət 162-nin yanında yerləşən digər məktəbdə- 51-də də eynidir. Məktəblərin stadionu, açıq hava meydançaları yoxdur, həyət isə çox kiçikdir.

Təhsil Nazirliyi fotoda gördüyünüz evi sahibindən kompensasiya ödəyib almaqla məktəbin həyətinin genişlənməsinə nail ola bilər. Əlavə olaraq, bu üsulla ərazi genişləşdiriləı, stadion və kiçik idman meydançaları da yaradıla bilər. Çünki məktəb təkcə nəzəri təhsil üçün deyil, həm də şagirdlərin praktik təcrübəsini və sağlamlıq imkanlarını möhkəmləndirmək üçündür.

Ümumiyyətlə, Bayıl zonasının 20-ci sahəsində olan 2 orta məktəbin şagird tutumu artıq tələbatı ödəyə bilmir. Burada yeni məktəbin inşasına və ya mövcud məktəblərin əlavə korpusların tikilməsinə ehtiyac var.

Ümidvarıq ki, yeni tədris ilində pandemiya dövründə şagirdlərin obyektiv səbəbdən bir qədər zəifləmiş tədris proqramı fədakar müəllimlər tərəfindən kompensasiya ediləcək. Məktəblərdə bunun üçün hər cür şərait var. Doğma məktəblərin bir daha heç vaxt bağlanmaması arzusu ilə.

***Lalə Mehralı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

23 sentyabr

# "İnternetin keyfiyyəti ilə bağlı çox ciddi problemlər var"







***"Azərbaycanda internetin qiymətinin aşağı və ya yuxarı olmasından asılı olmayaraq təəssüflər olsun ki, internet çox problemlidir. Azərbaycan dünyada internetin sürətinə görə, 167-ci yerdədir". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət deyib. Onun sözlərinə görə, bu ondan xəbər verir ki, internetin keyfiyyəti ilə bağlı çox ciddi problemlər var: "Təəssüflər olsun ki, biz bunu illərdir deyirik ki, Azərbaycanda internetin qiyməti çox yüksəkdir. Yüksək qiymət tətbiq edib, aşağı keyfiyyət təqdim etmək doğru bazarlama siyasəti deyil.***

EKSPERTLƏR AÇIQLADI

Görünür ki, bəzi provayderlər bu narazılıqları qiyməti aşağı salmaqla konpensasiya etmək istəyirlər. Amma ki, qiyməti aşağı salmaq çıxış yolu deyil. Çıxış yolu həm keyfiyyəti yüksəltməkdir, həm müqavilədə nəzərdə tutulan sürəti müştəriyə təqdim etməkdir, həm də şikayətlərə hörmətlə yanaşmaqdır. Məsələn mən Bakı şəhərində ailə.netdən istifadə edirəm. Neçə müddətdir onların "skype" proqramının bloklandığı haqqında danışıram, özlərinə məktub da yazmışam. Amma onlar buna reaksiya belə vermirlər. Yəni Azərbaycan dövləti "skype"ı bloklamaq haqqında hər hansı bir qərar qəbul etməyibsə, internet provayderi hansı haqla bunu bloklayır və bizim onların hansı səbəblə bu addımı atdıqları ilə bağlı səsləndirdiyimiz fikirlərə aylardır ki, reaksiya belə vermirlər. Bu keyfiyyətsizlik nəticə etibarilə bizim kimi insanlarda, müştərilərdə, abunəçilərdə narazılıq yaratmalıdır".

Mövzu ilə bağlı İTK üzrə ekspert Rəşad Cəfərov fikir bildirib: "İnternet xidmətlərindəki tariflərdə son dəyişiklik "Aztelecom" və "Baktelekom"a aiddir. Bir neçə gün öncə biz bunun şahidi olduq. "Aztelecom"un bu addımı regionlarda internet istifadəçilərinin işinə müsbət təsirini göstərəcək. Özüm də rayonda olanda bunun əziyyətini çəkdiyim üçün istifadəçilərin dərdini çox yaxşı bilirəm. Bu addım istifadəçilərin internetə qoşulma, yükləmələr zamanı əməliyyatları sürətli aparmağa imkan yaradacaq. İnanmaq istərdim ki, smartfonumuzun ekranındakı WİFİ üzərində nida işarəsinə də az-az rast gələcəyik. Digər provayderlərdən də bu addımın atılmasını gözləyirik. Bəzi provayderlər bunu yeni qoşulan abunəçilərə kampaniya kimi təklif edirlər. Qiymət endirimi bütün istifadəçilər üçün tətbiq edilməlidir. O ki, qaldı ümumilikdə ölkədə internet xidmətlərinin göstərilməsinə, bu sahədə həll olunmalı problemlər az deyil. Bu problemlərin həlli istiqamətində son günlərdə NRYTN ilə internet provayderləri arasındakı aparılacaq müzakirələrin, nazirlik yanındakı İctimai Şuranın son iclasındakı müzakirələrin bir nəticə verəcəyinə ümidliyik".

***Arzu Qurbanzadə***

## ELAN

**Şirvan şəhər sakini Bünyatov Kənan Fizuli oğluna məxsuz Vaz 2115 markalı dövlət qeydiyat nişan nömrəsi 90 VA 026 olan avtomabilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.**

* * *

**Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı 22.10.2021-ci il tarixində saat 11:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə Bankın Baş ofisində tanış ola bilərlər.**

# Sahildə bikinili poz




Çətin anlar yaşayan Tülin Şahin sahildə bikinili pozlar verib. SİA xarici mətbuata istinadən xəbər verir ki, o, hazırda uşağının atası portuqaliyalı iş adamı Pedro de Noronha ilə çətin anlar yaşayır.

İş adamı ilə məhkəmədə olan Tülin Şahin, fikrini yayındırmaq üçün tətilə çıxıb. O, tətildən bikinili pozunu sosial media səhifəsində izləyicilərinə təqdim edib. Paylaşdığı bikini çərçivəsi pərəstişkarları tərəfindən bəyənilib. Şahin paylaşımı üçün "Nəhayət tətildə" qeydini yazıb.

***Ayşən Vəli***

# Xolesterini aşağı salan təbii üsullar

***Xolesterin bədəndəki hər bir hüceyrə üçün vacibdir və bir çox hormonda xolesterin mövcutdur. Ancaq bu vəziyyət yüksək xolesterinun faydalı olduğu mənasını daşımır. Başqa sözlə, kifayət səviyyədən yuxarı olan xolesterin bədənə zərər verir.***

Qan testlərində xolesterin üçün iki dəyər önə çıxır. Bunlara HDL və LDL deyilir. Yaxşı xolesterin kimi tanınan HDL toxumalarda olan xolesterini toplayaraq bədəndən atılmasını təmin edir. Pis xolesterin kimi tanınan LDL isə xolesterini toxumalara daşıyır və damarların divarlarında yığılmasına səbəb olur. Bu səbəbdən pis xolesterini normallaşdırmaq kifayət deyil. Yaxşı xolesterini da artırmaq lazımdır. Yalnız pis xolesterin deyil, həm də yaxşı xolesterin səviyyələrinə nəzarət edilməlidir. Qidalanma zamanı müəyyən qaydalara diqqət yetirərək və aktiv həyat tərzi keçirərək xolesterini balansda saxlamaq mümkündür:

Bitki mənşəli müalicələrə aşağıdakılar daxil ola bilər:

**1.** Bir desert qaşığı soyuq preslənmiş püstə yağını gündə iki dəfə ac qarnına birbaşa ağızdan qəbul etmək təsirlidir.

**2.** Həftədə iki-üç dəfə istehlak ediləcək yağsız mərcimək şorbası bir tərəfdən xolesterinunuza nəzarət etməyə, digər tərəfdən də təzyiqinizi tarazlaşdırmağa kömək edəcək.

**3.** Ənginar, yerkökü, sarımsaq və soğan istehlak etmək xolesterinu azaldan xüsusiyyətlərə malikdir. Əzilmiş soğandan 1 çay qaşığı soğan suyu və bir çay qaşığı bal qarışdırıb gündə bir dəfə içə bilərsiniz.

**4.** Yaşıl çay, zəncəfil, rozmarin, kəklikotu, itburnu bitki çaylarını içmək yüksək xolesterina müsbət təsir edir. Gündə bir neçə stəkan yaşıl çay içmək pis xolesterini azaltmağın ən asan yollarından biridir.



**5.** Qara bibər və zəncəfil, rozmarin, kəklikotu, qırmızı bibər ədviyyatları çox faydalıdır.

**6.** Çiy fındıq, qoz və badamın pis xolesterində bir qədər azalma təmin etdiyi bilinir. Bununla birlikdə, lazımi miqdarda istehlak edilməlidir.

**7.** Üzüm toxumunun özü və ya tozu yüksək xolesterini aşağı salma xüsusiyyətinə malikdir.

**8.** Hər axşam yatmazdan əvvəl 2 qozu bir stəkan suya parçalayaraq qoyun, səhər yuxudan duranda bu suyu içərək və sonra qoz yeyərək xolesterini qısa müddətdə azalda bilərsiniz.

**9.** Gün ərzində bir stəkan su ilə qarışdırılmış bir çay qaşığı (mümkünsə evdə hazırlanan) alma sirkəsi içmək də faydalı ola bilər. Zamanla yüksək xolesterinin səbəb olacağı xəstəliklər ümumiyyətlə müalicəsi mümkün olmayan daimi xəstəliklərdir. Daimi xəstəliklərin həyat keyfiyyətinə mənfi təsir etdiyini unutmamaq lazımdır.

## Diqqət: Yüksək xolesterin şikayəti olanlar

Yüksək xolesterindən əziyyət çəkən xəstələr həkimlərinin tövsiyələrinə uyğun olaraq, statinlər kimi xolesterini basdıran dərmanlardan istifadə etməlidirlər. İştirak etdiyim bir şam yeməyində xolesterini azaldan dərmanlardan istifadə etdiyini deyən bir tanışım, tərəddüd etmədən həmin axşam diqqət etməli olduğu bəzi yeməkləri və desertləri yemişdi. Yeməkdən sonra ona həddindən artıq yediyini söylədikdə, mənə eynilə bu cavabı verdi: "Hörmətli həkim, mən onsuz da dərman içirəm, çox diqqət yetirməyimə ehtiyac yoxdur".

Mən ona bunun çox səhv olduğunu izah etdim. Çünki xolesterini aşağı salan dərmanlar yemək zamanı istehlak etdiyimiz qidalarda olan xolesterinə təsir etmir. Xolesterini aşağı salan dərmanlar qaraciyərin özünün istehsal etdiyi xolesterinə təsir edir, yəni qaraciyərin daha az xolesterin istehsal etməsinə imkan yaradır. Bununla birlikdə, yeməkdən aldığımız xolesterini azaldan xüsusiyyətlərə malik deyil. Bu səbəbdən yüksək xolesterini olan qidalara və yüksək şəkərli şirniyyatlara qarşı diqqətli olmaq lazımdır. Dərman istifadəsinə baxmayaraq tövsiyə olunan pəhrizə ciddi riayət edilməlidir.

Xolesterini aşağı salan dərmanlar qanda xolesterini aşağı salmır və parçalamır. Sadəcə qaraciyərə daha az xolesterin istehsal etməyi əmr edir. Demək olar ki, bütün xolesterini azaldan dərmanlar diabet xəstəliyi riskini artırır. Diabetiniz varsa və statin qrupu (xolesterin dərmanı) dərmanları istifadə edirsinizsə, bu vəziyyətin qan şəkərinizi artırmaqda təsirli ola biləcəyini gözdən yayındırmayın.

Qeyd: Həkiminiz tərəfindən verilən dərmanlar varsa, mütləq istifadə etməlisiniz. Buradakı tövsiyələrdən dəstəkləyici olaraq istifadə edin. Əvvəlcə istifadə edəcəyiniz bitkiyə allergiyanız olub olmadığını bilməlisiniz. Bu mövzuda həkimindən məsləhət alın. Şikayətinizdən asılı olmayaraq, həkimə müraciət etmədən və diaqnoz qoyulmadan buradakı məlumatlarla özünüzü müalicə etməyə çalışmayın.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**